www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 mart 2016-cı il Cümə № 51 (6372) Qiyməti 60 qəpik

**Xəbər**

## İki icra başçısı işdən çıxarıldı

yazısı səh.2-də

**Gündəm**

### "The Washington Times"dan Qarabağda müharibə xəbərdarlığı



Nüfuzlu Amerika nəşrinə görə, Rusiya Ermənistanı Türkiyə ilə münaqişəyə sürükləyir; "Ermənistan regionda təklənib"

yazısı səh.8-də

### Atom bombası olan yeganə dostumuz - Pakistan

yazısı səh.8-də

### Döyülüb öldürülən jurnalistin məhkəməsində vəkillər çıxış edib

yazısı səh.3-də

### Rəsmi Bakı Avropa İttifaqından istədiyini aldı

yazısı səh.9-da

### Yoluxucu xəstələr işdən çıxarılacaq-ekspertlərin şərhi

yazısı səh.10-da

*Komitə sədri:*

### "Onlar insanlara banklara borclarını qaytarmamağın yollarını öyrədirlər"

yazısı səh.13-də

### Parlament hansı terror təşkilatları haqqında qanun qəbul edib?

yazısı səh.9-da

### Qatil dayə hekayəti: ölkəmiz də təhlükədən sığortalanmayıb

yazısı səh.6-da

### Azərbaycandakı multimilyonerlərin sayı müzakirələr yaradıb

yazısı səh.12-də

### Pirallahıda allahsız cinayət: yaşlı cütlük öldürüldü

yazısı səh.3-də

### Siyasi məhbuslarsız Azərbaycan-martın sonu...

yazısı səh.6-da

## İqtidar oliqarx-məmurların "əl-ayağını" yığır

# AZAD RƏHİMOVA "AZAD" İŞARƏSİ - NAZİR TOTALİZATORLARI VƏ MİLYONLARI NİYƏ İTİRİR...

Mərc oyunlarına nəzarət Gənclər və İdman Nazirliyindən alınaraq prezident İlham Əliyevin yeni yaratdığı Maliyyə Bazarlarına Nəzarət Palatasına verilir; neftin qiymətinin düşməsi ilə büdcədən yayındırılan milyonlara nəzarət gücləndirilir; bəzi oliqarxlar iqtisadiyyatın çətin dövründə belə daha çox varlanmaq hərisliyindən əl çəkməzsə...




yazısı səh.5-də

## Putinin "uzaqvuran top"unun qəfil və sirli Bakı səfəri

Rusiyanın hərbi sənaye sahəsinə cavabdeh olan Dmitri Roqozinin Kreml başçısının xüsusi mesajını gətirdiyi də istisna edilmir

yazısı səh.4-də




### TQDK sədri "test sistemi qalacaq" dedi

yazısı səh.5-də



*Natiq Cəfərli:*

### "Cəbhəçilər söz tapmayanda bizi hökumətə işləməkdə suçlayırlar"

yazısı səh.4-də



### Nizami Qocayev yeni vəzifəsindən danışdı

yazısı səh.7-də



## "Bu dövləti yıxmaq istəyənlər də cəzalarını çəkməlidir"

**İsa Yaşar Tezel:** "Sonucu nə olursa-olsun, dövlətə sahib çıxmalıyıq"

**"Türkiyədə durum gərgindir. Xüsusilə də ölkənin cənub-şərq bölgəsində təhlükəsizlik orqanlarının daxil ola bilmədiyi şəhərlər var. Dövlət təmizləmə əməliyyatını davam etdirmək üçün şəhərlərə girmək istəyir, amma çox ciddi çətinliklərlə üzləşir. Hər gün şəhidlər veririk".**

MHP-nin aparıcı simalarından biri İsa Yaşar Tezel bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirdi. Xalq Demokratiya Partiyasının (HDP) həmsədri Dəmirtaşla bağlı araşdırmaların məntiqi sonucunun necə ola biləcəyinə gəldikdə, İsa Yaşar Tezel kürd siyasətçinin Türkiyənin bölünməsinə yönəlik fəaliyyəti, PKK-ya dəstək bəyanatlarının sonucu olaraq həbs olunmasını mümkün saydı: " Dəmirtaş növbəti aylarda həbs oluna bilər, həbs olunmalıdır da. Çünki o, insanları dövlətə qarşı üsyana çağırır. Bu, ölkəmiz üçün çox təhlükəli bir durumdur. Ayrıca partiyamızın lideri Dövlət Bahçeli də Məclisdə onun toxunulmazlığının qaldırılmasını istədi. Bu şəkildə toxunulmazlıq götürülərsə, onun həbsi gerçəkləşər. Sonucu nə olursa-olsun, dövlətə sahib çıxmalıyıq. Bu dövləti yıxmaq istəyənlər də cəzalarını çəkməlidir".

❑ E.PAŞASOY

## Prezident iki rayonun icra başçısını vəzifəsindən azad etdi

Zeynal Nağdəliyev deyib ki, vəzifədən azad edilən başçılar amiranəlik, təkəbbürlük, qərəzçilik, tənqidə qarşı dözümsüzlük nümayiş etdiriblər



**Mahmud Quliyev Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. "AzərTAc" agentliyinin məlumatına əsasən Azərbaycan prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb.**

Dövlət başçısının digər sərəncamı ilə Akif Səlimov Laçın Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

Prezident Administrasiyası rəhbərinin müavini, ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zeynal Nağdəliyev "AzərTAc"a bildirib ki, prezidenti İlham Əliyev son müşavirədə yerli icra hakimiyyəti orqanlarının rəhbərləri qarşısında mühüm tələblər qoyub və qeyd edib ki, onlar insanlara xidmət göstərməli, əhalinin problemlərini həll etməli, qayğıları ilə yaşamalıdırlar, dövlət məmurları və onların ailə üzvləri özlərini təvazökar aparmalı, xalqla birlikdə olmalıdırlar və məhz bu amillərə görə onların fəaliyyətlərinə qiymət veriləcəkdir.

Əhalidən gələn şikayətlər, aparılan təhlillər göstərib ki, bəzi yerli icra hakimiyyəti orqanlarının rəhbərləri qeyd edilənlərdən nəticə çıxarmayıb. Buna görə də Laçın və Cəbrayıl rayonlarının icra hakimiyyəti başçıları da məhz elə o səbəbdən tutduqları vəzifələrindən azad ediliblər. Onlar öz fəaliyyətlərini prezidentin qarşımıza qoyduğu tələblər səviyyəsində qura bilməyib, vətəndaşların problemlərinə laqeydlik, biganəlik göstərib, insanlarla münasibətdə qeyri-səmimilik və kobudluq nümayiş etdirib, təvazökarlıqdan uzaq hərəkətlərə yol veriblər. Z.Nağdəliyev deyib ki, vəzifədən azad edilən başçılar amiranəlik, təkəbbürlük, qərəzçilik, tənqidə qarşı dözümsüzlük nümayiş etdiriblər və nəticədə rayonun problemlərindən uzaq düşüb, sakinlərin haqlı tələblərinə məhəl qoymayıb, əhali arasında nüfuzdan düşüblər.

## Nardaranda vəziyyət nəzarətdədir

Yeni həbslərə bir qrup şəxsin qəsəbənin ara küçələrində divarlara dini şüarlar yazması səbəb olub

**Daxili Qoşunların və polisin nəzarətində olan Nardaranda yenidən genişmiqyaslı əməliyyat keçirilib. Martın 1-də baş tutan əməliyyatda bir neçə nəfər saxlanılıb, səkkiz nəfərə inzibati həbs cəzası verilib. Əməliyyatın keçirilməsinə səbəb martın 1-də səhər saatlarında bir qrup şəxsin Nardaranın ara küçələrində divarlara dini şüarlar yazması olub.**

Bu hadisə ötən ilin dekabrından Daxili Qoşunların və polisin əməliyyatlardan sonra nəzarətə götürdüyü Nardaranda baş verən ən səs-küylü hadisə oldu. Kənd sakinləri divarlara dini şüarlar yazan şəxsləri tanımadıqlarını deyir, Daxili İşlər Nazirliyindən isə verilən açıqlamada həbs edilənlərin kimliyi açıqlanmır.

Kənd sakinlərinin musavat.com-a verdiyi məlumata görə, sərbəst buraxılanlar Nardaran sakinləri olublar, lakin həbs edilənləri heç kim tanımır.

Nardaran ağsaqqalı Hacıağa Nurinin fikrincə, həbs edilənlərin kənd sakinləri olmaması bunun təxribat olduğunu göstərir: **"Onları heç kim tanımır. Bilirik ki, bunu kənardan kimlərsə edib. Məqsədli şəkildə qarşıdurma yaratmaq istəyirlər. Kənd sakinlərinin bu məsələ ilə əlaqəsi yoxdur".**

Xatırladaq ki, ötən il noyabrın 26-da polislə silahlı qarşıdurmada 2-si polis olmaqla, 6 nəfər dünyasını dəyişmişdi. Müsəlman Hərəkatı Birliyinin sədri Tale Bağırzadə və bir neçə radikal dindar həbs edilmişdi. Bundan sonra kənd sakinləri noyabr ayının sonunadək kənddə aksiyalar keçirmiş, kəndə girişlərdə barrikadalar qurmuşdular. Daxili Qoşunların və polisin keçirdiyi əməliyyatdan sonra Nardaran dekabr ayının 1-dən nəzarətdə saxlanılırdı. Hadisələrdə iştirak edən onlarla kənd sakini həbs edilmişdi.

T.Bağırzadənin fevralın 19-da keçirilən məhkəməsi zamanı da insident yaşanıb. Belə ki, Nəsimi Rayon Məhkəməsində Taleh Bağırzadənin məhkəmə prosesi zamanı 15-20 nəfər şəxs məhkəmənin inzibati binasının qarşısında aksiya keçirməyə cəhd göstərib.

Aksiyaya təşəbbüs zamanı 9 nəfər saxlanılaraq Nəsimi Rayon Polis İdarəsinin 20-ci polis bölməsinə aparılıb, barələrində müvafiq sənədləşmə aparılaraq qərar qəbul edilməsi üçün rayon məhkəməsinə göndərilib.

Saxlanılanların ad-soyadları barədə də musavat.com-a məlumat daxil olub. Onlardan Bakı şəhər sakinləri 1988-ci il təvəllüdlü Murad Şahin oğlu Qurbanov, 1993-cü il təvəllüdlü Lətif Xalid oğlu Cəfərli və əvvəllər CM-in 234.1-ci maddəsi ilə məhkum olunmuş 1986-cı il təvəllüdlü Rəvan İlham oğlu İsmayılov inzibati qaydada həbs edilib. Digər saxlanılanlara xəbərdarlıq edilərək sərbəst buraxılıblar.

❑ İlkin MURADOV

## AzTV-dən İlhamə Quliyevanın oğluna cavab



**Mərhum xalq artisti İlhamə Quliyevanın ölümündən sonra adı ətrafında qalmaqal davam edir. Bu dəfə qalmaqal İlhamə Quliyevanın maaş kartı ətrafında yaranıb. İlhmə Quliyeva Azərbaycan Televiziya və Radio açıq Səhmdar Cəmiyyətinin səsyazma studiyasında birinci müavin olub. Bir neçə gün öncə isə onun oğulluğu Orxan Nadirov açıqlamasında əmək haqqı kartının dondurulması ilə bağlı açıqlama verib.**

AzNews.az xəbər verir ki, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəisi Xatirə Qasım cebhe.info-ya bildirib ki, mərhum xalq artistinin əmək haqqı kartı AzTv tərəfindən dondurulmayıb: "O, bir müddət xəstəxanada yatdı. Biz ondan xəstəlik haqqında sənəd gözləyirdik. Lakin dünyasını dəyişdi və hazırda da kartı dondurulmayıb. Onun oğulluğunun bu barədə yaydığı məlumat tamamilə yalandır". O ki qaldı İlhamə xanımın yerinə yeni təyinata, bu məsələ hələ gündəmdə deyil: "İmkan verək ki, 40-ı çıxsın, ondan sonra bu məsələyə baxılacaq. Biz hamımız müsəlmanıq, İslam dininə ibadət edirik. İmkan verək bir hadisələr cərəyan etsin, xəbər soyusun, ondan sonra. Hər şey sakitləşdikdən sonra təbii ki, İlhamə xanımın yerinə təyinat olacaq". Qeyd edək ki, mərhum xalq artistinin mirası üçün qalmaqallar daha da böyüməkdədir.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalları rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sİdıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**



## Bakıda "Qarabağ"la "Qalatasaray"ın görüşü olacaq

**"Qarabağ" futbol klubu ilə Türkiyənin "Qalatasaray" futbol klubları arasında yoldaşlıq görüşü keçiriləcək.**

Musavat.com-un əldə etdiyi məlumata görə, görüşün bu ayın sonunda keçirilməsi nəzərdə tutulub.

Klubların mart ayının 29-da Bakıda yoldaşlıq görüşü keçirməsi ilə bağlı klub rəhbərlikləri arasında danışıqların olduğu və razılığa gəlindiyi bildirilir.

Oyun Bakı Olimpiya Stadionunda baş tutacaq.

"Qarabağ" futbol klubunun mətbuat xidmətinin rəhbəri Nurlan İbrahimov musavat.com-a açıqlamasında belə bir görüşün baş tutması ehtimalının olduğunu təsdiqlədi. Lakin klub rəsmisi görüşün keçirilməsi ilə bağlı dəqiq məlumatın hələ ki olmadığını söylədi.

❑ İlkin MURADOV



## Rauf Murqədirovun apelyasiya şikayəti üzrə məhkəmə təxirə salındı

**Martın 3-də Bakı Apelyasiya Məhkəməsində həbsdə olan jurnalist Rauf Murqədirovun apelyasiya şikayəti üzrə məhkəmə prosesi başlamalı idi. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Abid Abdinbəyov sədrlik edib. Rauf Mirqədirov məhkəmə zalına gətirilib.**

Vəkil Fuad Ağayevin verdiyi məlumata görə, qapalı keçiriləli olan iclas başlamadan martın 16-na qədər təxirə salınıb. Buna səbəb kimi məhkəmənin ilkin baxış qərarından kasasiya şikayəti vermək üçün olan müddətin başa çatmaması göstərilib.

Xatırladaq ki, Rauf Mirqədirov Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham olunub. O, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 6 il müddətinə azadlıqdan məhrum edilib.

Bu hökmdən apelyasiya şikayəti verilib, şikayətdə jurnalistə bəraət verilməsi xahiş olunur.

Jurnalistlə bağlı istintaq Milli Təhlükəsizlik Nazirliyi tərəfindən aparılıb. R.Mirqədirov isə ittihamları rədd edir və həbsinin fəaliyyəti ilə bağlı olduğunu deyir.

## Poroşenko Türkiyəyə çox vacib səfərə gedir

**Ukrayna prezidenti Pyotr Poroşenko martın 9-10-da Türkiyədə rəsmi səfərdə olacaq. APA-nın verdiyi xəbərə görə, P. Poroşenko bunu Kiyevdə Taras Şevçenko adına Ukrayna Milli Mükafatının təqdimat mərasimində deyib.**

"Beynəlxalq hadisələrin qrafiki belə alınıb ki, mən məhz Şevçenko Günlərində Türkiyəyə rəsmi səfərə yollanıram. Sizlər kifayət qədər siyasi biliyə maliksiniz və bu səfərin nə qədər önəmli olduğunu anlayırsınız. Rəcəb Ərdoğanla görüş, müdafiə qabiliyyətimizin möhkəmlənməsi və siyasi-iqtisadi ittifaq xarakterli məsələlərdən söhbət gedir", - deyə o söyləyib.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

Martın 3-də ann.tv saytının əməkdaşı Rasim Əliyevin ölümündə təqsirləndirilən şəxslərin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Virtualaz.org xəbər verir ki, Rasim Əliyevin qətlində təqsirləndirilən Arif Əliyevin vəkili Fəxrəddin Əliyev çıxış edərək müdafiə etdiyi şəxsə qarşı ittihamları əsassız adlandırıb və dövlət ittihamçısının A.Əliyevə ağır cəza istədiyini qeyd edib.



# Döyülüb öldürülən jurnalistin məhkəməsində vəkillər çıxış edib

## Vəkillərdən biri həkimin məsuliyyətə cəlb olunmasını, digəri müvəkkilinə bəraət verilməsini istəyib

Bildirib ki, bu, qəflətən baş verən hadisədir və R.Əliyev həkim səhlənkarlığından dünyasını dəyişib. O, həkimin məsuliyyətə cəlb olunmasını istəyib.

**Samir Mustafayevin vəkili Ruslan Həsənov müdafiə etdiyi şəxsə bəraət verilməsini xahiş edib. O bildirib ki, Samirin günahı olmayıb.** “Samir, sadəcə, "Bayıl market"in yolunu göstərib. Samirin əməlində cinayət tərkibi yoxdur və ona bəraət verilməsini xahiş eidrəm", - deyə vəkil bildirib.

Təqsirləndirilən Kənan Mədətovun vəkili Rəsul Yusifbəyli də çıxış edərək bildirib ki, bu işə hansı tərəfdən baxsan, həkim səhvinin olduğu görünür. O, Kənanın əməlinin 307-ci maddə ilə təqsirləndirilməsini tövsiyə edib və bildirib ki, K.Mədətov yalnız cinayəti bilib xəbər verməməkdə ittiham oluna bilər. Məhkəmə prosesi martın 10-da davam edəcək.

Qeyd edək ki, prokuror çıxışında Elşən İsmayılov və Arif Babayevə 14 il, Camal Məmmədova 12 il, Kənan Mədətov və Samir Mustafayevə 11 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzası tələb edib.

Xatırladaq ki, ann.tv-nin əməkdaşı Rasim Əliyev facebookda futbolçu Cavid Hüseynovu tənqid edən statusuna görə 8 avqust, 2015-ci ildə Bayıl qəsəbəsi ərazisində bir qrup şəxs tərəfindən döyülüb. Jurnalist çoxsaylı bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib və ertəsi gün orada vəfat edib. Bununla bağlı Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayev barəsində həbs-qətimkan tədbiri seçilib.

O cümlədən “Qəbələ” klubunun sabiq kapitanı Cavid Hüseynov da R.Əliyevin döyülərək qətlə yetirilməsi ilə əlaqədar açılan cinayət işi üzrə şübhəli şəxs qismində saxlanılıb. C.Hüseynovun bibisi oğlu E.İsmayılovun təşkilatçılığı ilə ağır cinayətin hazırlanmasını bilərək bu barədə xəbər verməməsi, cinayətin törədilməsindən sonra isə qabaqcadan vəd etmədən onun gizlədilməsinə yönələn hərəkətlərə yol verməsində əsaslı şübhələr olduğundan ona Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrində nəzərdə tutulan ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, jurnalist Rasim Əliyevin döyülərək öldürülməsinə səbəb olmuş futbolçu, “Qəbələ” klubunun kapitanı Cavid Hüseynovun barəsindəki cinayət işi digər təqsirləndirilən şəxslərin işindən ayrılıb.

## Pirallahıda allahsız cinayət: yaşlı cütlük öldürüldü

**Bakıda dəhşətli cinayət hadisəsi baş verib. Xəzər Rayon ProkurorluğundanAPA-ya verilən məlumata görə, hadisə Pirallahı rayonunda qeydə alınıb. Rayon sakinləri - 1928-ci il təvəllüdlü Hacı Əmirov və onun həyat yoldaşı, 1933-cü il təvəllüdlü Sona Əmirovanın meyitləri yaşadıqları evdə aşkar edilib.**

Meyitlərə baxış keçirilərkən qadının üzərində zorakılıq əlamətləri aşkar edilib. Hadisənin başvermə səbəblərini müəyyənləşdirməkdən ötrü müvafiq ekspertizalar təyin edilib.

Faktla bağlı Xəzər Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Hüquq-mühafizə orqanlarından lent.az-a bildirilib ki, martın 2-də axşam saatlarında Pirallahı qəsəbəsi, 29-cu məhəllə, ev 15, mənzil 8 ünvanında meyiti tapılan 1933-cü il təvəllüdlü Əmirova Sona İsmayıl qızının üzərində zorakılıq əlamətləri aşkarlansa da, onun həyat yoldaşı, 88 yaşlı Əmirov Hacı Əli oğlunun üzərində hər hansı zorakılıq əlaməti olmayıb. Məlum olub ki, S.Əmirovanın başına küt alətlə zərbələr endirilib. Bildirilir ki, ahıl cütlük özlərinə məxsus olan bina evində yaşayırmış. Dünən onların Yasamalda yaşayan qızları Sevda Mirzəyeva polisə zəng edərək bildirib ki, bir neçə gündür valideynləri ilə əlaqə saxlaya bilmir və onlar telefon zənglərinə cavab vermir.

Bundan sonra hüquq-mühafizə orqanlarının əməkdaşları həmin ünvana gəliblər və ahıl ər-arvadın öldürüldüyünü görüblər. Cinayətin bir neçə gün əvvəl törədildiyi ehtimal edilir.

Faktla bağlı Xəzər Rayon Prokurorluğunda cinayət işi başlanıb, əməliyyat-axtarış və istintaq tədbirləri həyata keçirilir.

## Azərbaycanda cəza çəkən 21 iranlı məhbus ölkəsinə verildi

**2015-ci ildə Azərbaycanda cəza çəkən 21 iranlı məhbus İran tərəfə təhvil verilib. Bu barədə "Trend"ə Ədliyyə Nazirliyinin mətbuat xidmətindən məlumat veriblər.**

Məlumatda bildirilir ki, Azərbaycan Ədliyyə Nazirliyi ilə İran tərəfi arasında aparılan danışıqların nəticəsi olaraq həmin məhkumların cəzalarının qalan hissəsini öz ölkələrində çəkməsi barədə razılıq əldə edilib və 21 məhbus İrana təhvil verilib. İran tərəfə təhvil verilən həmin məhbuslardan 3 nəfəri qadın, 18 nəfəri isə kişidir.

Məlumata görə, cəzasının qalan hissəsini öz ölkəsində çəkmək üçün İrana təhvil verilən 21 nəfər Azərbaycan Cinayət Məcəlləsinin 234-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddəsində təqsirli bilinən şəxslərdir.

# Sülhəddin Əkbər Avropa Məhkəməsinə şikayət edəcək

## “Azərbaycanda hüquqi müstəvidə mübarizəmiz başa çatdı”

**Martın 3-də Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasında hakim İlqar Hüseynovun sədrliyi ilə Azad Demokratlar Partiyasının (AzDP) Ədliyyə Nazirliyinə qarşı “Partiyanın qeydə alınması və şəhadətnamənin verilməsi” tələbinə dair inzibati iş üzrə ikinci kasasiya şikayətinə baxılıb və məhkəmə tələbin yerinə yetirilməsindən imtina edib.**



Bu barədə **AzDP sədri Sülhəddin Əkbər** “Yeni Müsavat”a məlumat verib. Rəhbərlik etdiyi partiyanın 2014-cü ilin iyulunda yaradıldığını bildirən S.Əkbərin sözlərinə görə, dövlət qeydiyyatına alınmaq üçün rəsmi qaydada 5 dəfə müraciət edib. Lakin Ədliyyə Nazirliyi hər dəfə müraciətlərə mənfi cavab verərək AzDP-ni qeydiyyata almaqdan imtina edib: “Biz səbrlə bu yazışmalara davam elədik. Ədliyyə Nazirliyinin irad kimi göstərdiyi məsələləri hər dəfə düzəltsək də hər dəfə başqa bir bəhanə tapdılar və partiyanı qeydə almaqdan imtina etdilər. Biz məcbur qalıb məhkəməyə üz tutmalı olduq. Apelyasiya Məhkəməsinə müraciət etdik. O da Ədliyyə Nazirliyinin tərəfini tutdu. Məcbur qalıb Ali Məhkəməyə müraciət etməli olduq. Ali Məhkəmə bizim iddiamızı qismən təmin etdi və işi yenidən Apelyasiya Məhkəməsinə qaytardı. Biz ilk vaxtlarda belə düşündük ki, yəqin Ali Məhkəmə Apelyasiya Məhkəməsinə şərait yaradır ki, səhvini düzəltsin. Ali Məhkəmənin birinci qərarının ruhu bundan ibarət idi ki, Apelyasiya Məhkəməsi partiya və Ədliyyə Nazirliyi arasında bir barışıq aramağa çalışmayıb, buna çalışmalıdır. Biz də düşündük ki, yəqin barışıq əldə olunacaq. Çox təəssüf ki, biz düşündüyümüz kimi olmadı. Apelyasiya Məhkəməsi yenidən öz qərarını qüvvədə saxladı. Biz məcbur qalıb yenidən Ali Məhkəməyə müraciət etməli olduq. Təsəvvür edin ki, Ali Məhkəmə bizim müraciətimizə baxmağı təxminən 4 ay sonraya təyin etdi. Artıq bizə aydın oldu ki, əsas məsələ işi yubatmaqdır ki, biz Avropa Məhkəməsinə gedə bilməyək. Biz ikinci dəfə işi qaldırdıq. Yenə Apelyasiya Məhkəməsi müraciətimizi təmin eləməkdən imtina etdi. Biz təkrar Ali Məhkəməyə müraciət etməli olduq. Bizim eyni məsələ ilə bağlı Ali Məhkəmədə iki işimiz var idi. Ali Məhkəmə birinci işə fevralın 25-də, ikinci işə isə martın 3-də baxdı. Mən həm Apelyasiya Məhkəməsində, həm də Ali Məhkəmədə çıxışımda qeyd eləmişdim ki, mənə bir istiqlalçı millət vəkili kimi çox ağırdır ki, öz hökumətimdən Avropa İnsan Haqları Məhkəməsinə müraciət etmək zorunda qalım. Çox təəssüf ki, Azərbaycan hakimiyyəti belə düşünmür. Ali Məhkəmə bizim hər iki kasasiya şikayətimizə mənfi cavab verdi. Biz artıq Avropa Məhkəməsinə müraciət etməkdən başqa çıxış yolu görmürük. Azərbaycanda bu məsələ ilə bağlı hüquqi müstəvidə mübarizəmiz başa çatdı”.

**S.Əkbər bəyan etdi ki, AzDP-nin qeydə alınmaması sırf siyasi xarakterli bir işdir:** “Hakimiyyət düşünür ki, Azərbaycanda müxalifəti artıq sıradan çıxara bilib və bu müxalifətin nə ictimai rəyə, nə də hakimiyyətin siyasi qərarlarına heç bir təsir gücü qalmayıb. Hakimiyyət istəmir ki, yeni bir siyasi müxalif qüvvə ortaya çıxsın”.

**AzDP sədri sonda dedi ki, Ali Məhkəmənin qərarlarını əldə etdikdən sonra Avropa Məhkəməsinə müraciət edəcək:** “Avropa Məhkəməsindən partiyamızın qeydiyyata alınması üçün qərar çıxarılmasını, yoxsa hökumətin cərimələnməsini xahiş edəcəyimizi isə hələ vəkillə müzakirə etməmişik. Vəkilimiz Fuad Ağayevdir və onun Avropa Məhkəməsi ilə iş təcrübəsi var”.

❑ E.SEYİDAĞA



# Putinin "uzaqvuran top"unun qəfil və sirli Bakı səfəri

## Rusiyanın hərbi sənaye sahəsinə cavabdeh olan Dmitri Roqozinin Kreml başçısının xüsusi mesajını gətirdiyi də istisna edilmir...

**Rusiya baş nazirinin birinci müavini, hərbi sənaye sahəsini kurasiya edən Dmitri Roqozin martın 2-dən 3-nə keçən gecə Bakıda olub. Rusiyanın "Kommersant" qəzeti səfərin "əvvəlcədən planlaşdırılmayan və xüsusi məqsəd daşıyan səfər" olduğunu yazıb.**

Dmitri Roqozin öz növbəsində Azərbaycan paytaxtında olduğunu Bakıya enən andan təsdiq edib. "Bakıda havanın temperaturu gecə 9°C, gündüz 14°C-dir. Küləklidir. Azərbaycan paytaxtından hamıya salam!"-deyə o cümə axşamına keçən gecə öz facebook səhifəsində yazıb.

Rusiya prezidenti Vladimir Putinin ən yaxın adamlarından sayılan Roqozinin Azərbaycana gələcəyi barədə əvvəlcədən heç bir rəsmi və qeyri-rəsmi informasiyanın verilməməsi onun Bakı səfərinin həqiqətən də əvvəlcədən planlaşdırılmayan qəfil və xüsusi məqsəd daşıyan səfər olduğunu söyləməyə əsas verir.

Dmitri Roqozinlə yanaşı, Rusiya silahlarının xüsusi ixracatçı şirkəti olan "Rosoboroneksport", həmçinin Hərbi-Texniki Əməkdaşlıq Federal Xidməti rəhbərliklərinin nümayəndələrinin də Bakıya gəldikləri bildirilir. "Kommersant"ın xəbərinə görə, qəfil səfərə yüksək səviyyədə həll edilməli olan ixrac müqavilələri ilə bağlı çətinliyin yaranması səbəb ola bilərdi.

"Neftin qiymətinin düşməsi hamıya təsir edib və bizim azərbaycanlı tərəfdaşlarımız da istisna deyil. İş o yerə çatıb ki, onların sifariş etdiyi texnika hazırlanıb və göndərilib, lakin hələ ki boşaldılmadan limanda hərəkətsiz qalıb və vəziyyətin yoluna qoyulmasını gözləyir"- deyə qəzet mənbələri izah ediblər.

Dünən prezident İlham Əliyev Azərbaycana səfərə gəlmiş D.Roqozini qəbul edib. Bu barədə twitter-dəki mikrobloqunda yazmış Roqozin görüşün dostluq şəraitində keçdiyini deyib və görüşdən fotoşəkil paylaşıb.

Onun həmçinin Azərbaycanın Nazirlər Kabinetində də görüşlər keçirdiyi barədə xəbərlər yayılıb.

Azərbaycanın Rusiyadakı keçmiş səfiri, politoloq Hikmət Hacızadə hesab edir ki, Dmitri Roqozin Rusiya silahının istehsalına və satışına faktiki olaraq cavabdehlik daşıyan, rəhbərlik edən şəxsdir. Bu baxımdan onun Bakıya qəfil səfərinin əsasən Azərbaycanla silah alveri ilə bağlı hansısa məsələlərin həlli məqsədi daşıdığı şübhəsizdir.

Nəzərə alsaq ki, Roqozin Rusiya baş nazirinin birinci müavini, Putinə ən yaxın fiqurdur, onun Bakıda geosiyasi məsələləri müzakirə edəcəyi, Kremlin Azərbaycanla Qərbin son vaxtlar münasibətlərində istiləşmədən dolayı hansısa narahatlıqlarını çatdırması da istisna deyil.

Bəzi ekspertlər Rusiya prezidentinin Azərbaycan prezidentinə fevralın sonlarında iki dəfə zəng etməsindən az sonra Roqozinin Bakıya gəlməsinin təsadüfi olmadığına da diqqət çəkməyi lazım bilirlər.

❑ E.SEYİDAĞA

# "Bunlar söz tapmayanda bizi hökumətə işləməkdə suçlayırlar"

## Natiq Cəfərli AXCP ilə aralarında yaranmış söz davasından danışdı

**Məlum olduğu kimi, REAL Hərəkatının rəhbərlərindən biri, tanınmış iqtisadçı Natiq Cəfərli ilə AXCP sədri Əli Kərimli arasında münasibətlər gərginləşib. Buna səbəb N.Cəfərlinin adını çəkməsə də, dolayısıyla AXCP sədrini tənqid etməsi olub. Bundan sonra AXCP sədrinin tərəfdarları sosial şəbəkədə iqtisadçının üzərinə hücuma keçiblər, onu iqtidara satılmaqda, xəyanətdə suçlayır, hətta peşəkar mediada yazılması mümkün olmayan sözlərlə təhqir edirlər.**

*Bu isə artıq neçənci dəfədir ki, təkrarlanır. Demokratik düşərgədə fikir ayrılıqları öz yerini qovğalara, "söz terroruna" verir və nəticədə bir tərəfin total hücumu digər tərəfin psixoloji təzyiqə məruz qalması ilə sonuclanır. N.Cəfərli "Yeni Müsavat"a müsahibəsində bu məqamlara diqqət çəkib. Müsahibimiz öncə yaranmış situasiyanı təhlil edib.*

- Çox üzücü mənzərədir. Çünki demokratik, özünü müxalifət adlandıran qüvvələrin hamısı mütləq azad düşüncədə, söz azadlığı, fikir və diskussiyada hökumətə örnək olmalıdır. Hökumət bu diskussiyalardan dərs almalıdır ki, ölkədə azad və demokratik diskussiyalar var. Bu anlamda da biz hökumətə örnək olmalıyıq. Çünki hökumətin ölkədə diskussiya mədəniyyətini aşağı salmağa marağı var. Debat mədəniyyəti son illərdə xeyli dərəcədə aşağı düşüb. Hökumətin də bunda çox ciddi rolu olub. Ona görə də demokratik qüvvələrin diskussiya aparma qabiliyyəti hökumətə bir dərs olmalıdır. Amma təəssüf ki, görünən odur ki, normal fikir mübadiləsi aparmaq üçün cəmiyyət hədsiz dərəcədə radikallaşıb. Çox üzücü haldır. Çünki demokratik ortamda fikir mübadiləsi olmasa, mübahisələr bir-birini qarayaxma şəklində aparılsa, bu, ölkədə debat, diskussiya mədəniyyətinin olmasına xidmət etmir. Əksinə, aqressivliyi daha da artırır. Bizim üzərimizə düşən missiyadan biri də ondan ibarətdir ki, ölkədə fərqli fikirlərin normal şəkildə səsləndirilməsinə və diskussiya mədəniyyətinin genişləndirilməsinə xidmət edək. Və bu yöndə də hökumətə örnək olaq. Çox təəssüf ki, bu, baş vermir və baş verən üzücü bir haldır.

***- Daha öncə də AXCP üzvləri, funksionerləri tərəfindən total hücuma məruz qalanlar olub. Necə düşünürsüz, bu, tendensiya halını alıb, yoxsa sizin nümunənizdə ortada dialoq qopuqluğu, yanlış anlaşılma oldu?***

- Əslində AXCP-yə, onun rəhbərinə, eləcə də müxalif düşərgədə olan hər kəsə böyük hörmətim var. Əgər bizim ümumi məqsədimiz ölkədə normal, demokratik cəmiyyət qurmaqdırsa, bu fəaliyyətlə məşğul olan hər kəs hörmətə layiqdir. Sadəcə, belə ortam yaradılır ki, bəzi tənqidi fikirlər səsləndirilməsin. Bu, olduqca acınacaqlı durumdur. Əslində çox normal bir fikir mübadiləsi olmalı idi. Çünki ictimaiyyətdə belə bir yanlış fikir formalaşmışdı ki, ölkəyə gətirilən mallar real qiymətindən 20-30 dəfə baha satılır. Əslində isə bunun kökündə gömrükdə olan korrupsiya faktları yer alırdı. Çünki gömrükdə qiymətləri xeyli dərəcədə, bilərəkdən aşağı salırlar ki, korrupsiya üçün yol açılsın, imkan yaransın. Bu da bir anlaşılmazlıq yaratmışdı. İnsanlar başa düşmürdülər ki, ölkəyə qəpik-quruşa gətirilən mallar 20-30 manata satılır. Buna bir aydınlıq gətirmək üçün öz fikirlərimi yazdım. Əslində bu, çox normal da qarşılanmalı, fikir mübadiləsi də bu şəkildə baş verməli idi. Amma sonradan görünür, xoşlarına gəlmədi ki, kiminsə fikrinə alternativ söyləmək mümkündür. Cəmiyyətdə toxunulmazlıq sindromu yaratmaq istəyirlər. Bu, çox acınacaqlı bir haldır. Biz özümüzə senzura qoya bilmərik, qoymamalıyıq da. Mən ictimai-siyasi həyatım boyu həmişə düşündüyüm fikirləri yazmağa, səsləndirməyə çalışmışam. Özümə senzuranı da heç zaman qoymamışam. İllərdir ki, hökumətin apardığı iqtisadi siyasəti, ümumi siyasi vəziyyəti tənqid eləmişəm. Bu, mənim haqqımdır və heç kim də bu haqqı mənim əlimdən ala bilməz.

***- Hətta mübahisənin müəyyən bir məqamında sizi hakimiyyətə satılmaqda da suçladılar...***

- Əslində mən demişdim ki, bu baş verənlər hakimiyyətin korrupsiya siyasətinin nəticəsidir. Sən demə, onların məntiqi ilə bu fikir hökumətə işləmək demək imiş. Bu hökumətə işləmək fikri olduqca absurd və bəsit bir iddiadır. Bu, sözü qurtaran, arqumenti olmayan insanların sadəcə qarayaxma kampaniyasıdır. Bu, təəssüf doğurur. Ortaya ciddi bir arqument qoya bilməyəndə həmişə belə fikir söyləyib, çamur, çirkab atmağa çalışırlar. Bu, illərdir davam edən bir prosesdir. Alternativ bir fikir söyləyən hər kəsə qarşı bu taktikadan istifadə edirlər. Necə ki, hökumət bizə qarşı bir arqument tapmayanda bizi Qərbə işləməkdə suçlayır -halbuki bu da tamamilə absurd bir iddiadır. Bu tipli insanlar da söz tapmayanda bizi hökumətə işləməkdə suçlayırlar. Bunların sözündən belə çıxır ki, biz hər yerə işləyirik, özümüzdən başqa. Biz bu günə qədər öz mövqelərimizə, dəyərlərimizə uyğun hərəkət etmişik, ölkədə toxunulmazlıq sindromunu qaldırmağa çalışmışıq. Bu ölkədə heç kim -hökumətdə, müxalifətdə, ictimai həyatda aktiv olan insanlardan heç biri toxunulmaz deyil.

***- Bu situasiyada göründü ki, toxunulmaz hesab edilənlər də varmış...***

- Təəssüf ki, belə təəssürat yarandı. Məlum oldu ki, bəzi insanların fikrinin əleyhinə heç nə demək olmaz. Halbuki burda fikrin əleyhinə də heç nə deyilməmişdi. Əksinə, fikri daha çox izah etməyə yönəlik yazım var idi. Bir daha deyirəm: hökumətin arqumenti ilə bu tipli adamların arqumenti aşağı-yuxarı eyni idi. Yəni bir medalın iki üzü. Hökumət söz tapmayanda bizi Qərbə işləməkdə suçlayır, bunlar söz tapmayanda hökumətə işləməkdə suçlayırlar. Çox bəsit və absurd yanaşmadır.



**"Hökumətlə bunlar bir medalyonun iki üzüdülər"**

***- Necə edə bilərik ki, demokratik cəmiyyətdə bir dözümlülük, əks fikrə tolerant yanaşma olsun? Çünki demokratik düşərgədə terrora varan dözümsüzlük artıq dəb halını alıb.***

- Biz bu xətti davam etdirəcəyik. Biz ölkədə demokratik ortam, diskussiya mədəniyyəti yaranana qədər bu yanaşmamızı davam etdirəcəyik. Hamının məni, mənim də hamını tənqid etmək hüququmuz var. Bu hüququ heç kimin bizim əlimizdən almaq haqqı yoxdur. Biz cəmiyyətdə bu debat mədəniyyətini getdikcə otuzdurmağa çalışmalıyıq. Bunun uğurları da var. REAL Hərəkatı olaraq bizim ciddi layihələrimiz də var. Cümhuriyyət Məktəbi çərçivəsində əks fikirli insanları dəvət edib, çox mədəni şəkildə debat aparırıq. Bu videoçəkilişlər sonradan yayılır və minlərlə insan bunu sonradan izləyir. Yəni biz bunu otuzdurmağa, buna cəmiyyətdə yer eləməyə çalışmalıyıq. Yenə də deyirəm ki, bu addımlarla biz hökumətə örnək olmalıyıq. Az qala onları utandırmalıyıq ki, demokratik düşərgədə belə debat mədəniyyəti var, amma sizdə yoxdur. Mən əminəm ki, biz bunu bacaracağıq. Sosial şəbəkədə gedən müzakirələr də onu göstərdi ki, insanlar artıq bütpərəstlikdən, şəxsiyyətə pərəstişdən beziblər. İnsanlara alternativ fikirlər daha maraqlıdır. Biz bu xətti kimin xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq davam etdirəcəyik.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 51 (6372) 4 mart 2016

# İqtidar oliqarx-məmurların "əl-ayağını" yığır




## Azad Rəhimova "azad" işarəsi - totalizatorları və milyonları niyə itirir...

**Mərc oyunlarına nəzarət Gənclər və İdman Nazirliyindən alınaraq prezident İlham Əliyevin yeni yaratdığı Maliyyə Bazarlarına Nəzarət Palatasına verilir; neftin qiymətinin düşməsi ilə büdcədən yayındırılan milyonlara nəzarət gücləndirilir; bəzi oliqarxlar iqtisadiyyatın çətin dövründə belə daha çox varlanmaq hərisliyindən əl çəkməzsə...**

**Azərbaycanda ən çox gəlir gətirən sahələrdən biri də mərc oyunları sektorudur. 2010-cu ilin yanvarında Azərbaycanda mərc oyunları Milli Məclisin qərarı ilə leqallaşdırıldı və "Azərinteltek" adlı Qapalı Səhmdar Cəmiyyəti (QSC) yaradıldı. Bir il sonra QSC tərəfindən "Topaz" əmtəə nişanı təsis edildi və ölkəmizdə faktiki olaraq leqal mərc oyunlarının keçirilməsi başlandı. Tez bir zamanda Bakı və digər şəhərlərdə "Topaz" məntəqələri fəaliyyətə başladı. "Topaz" markasına isə gənclər və idman naziri Azad Rəhimov sahibləndi. Nazirin nəzarətində olan qurum qumar bazarını monopoliyaya aldıqdan sonra illərdir ki, oyunlarında aşkarlanan qanun pozuntuları və vergidən yayınma halları barədə ən müxtəlif səviyyələrdə, hətta Milli Məclisdə də dəfələrlə məsələ qaldırılıb.**

Heç kimə sirr deyil ki, hər gün futbol oyunlarına qoyulan proqnozlardan milyonlarla manat qazanılsa da, bu vəsaitin nə qədərinin dövlət büdcəsinə vergi şəklində verilməsi daima müzakirə mövzusu olub. Milli Məclisdə bununla bağlı səslənən ittihamlara nazir son olaraq belə bir münasibət bildirmişdi. A.Rəhimov demişdi ki, "Topaz"ın işi tam şəffafdır və idmanın inkişafına xidmət edir: ""Topaz"ın dövriyyəsindən 4,2% vəsait "Azəridmanservis" dövlət müəssisəsinin hesabına gəlir. Həmin vəsaitin 30%-i AFFA-nın, 70%-i digər idman növlərinə paylanır. Bu, birmənalı olaraq idmanın inkişafı üçün böyük köməkdir. Dünyada və Avropanın bir çox ölkələrində müxtəlif totalizatorlardan bu maliyyə nazirliklərə, komitələrə daxil olur və idmanın inkişafına sərf olunur. Biz məhz "qara bazar"la mübarizə aparmalıyıq, nəinki bu gün tam şəffaf olan və idmanın inkişafına xidmət edən "Topaz"la."

Amma bununla da bukmeyker kontorları ətrafında daha bir intriqa başladı. İddia olundu ki, "Azəridmanservis" də əslində nazirin nəzarətindədir. Futbol qumarından qazanılan gəlirlərin böyük hissəsi məhz bu qurumun büdcəsinə daxil olur. Burdan gələn böyük pulların etibarlı əllərə toplanması üçün nazir totalizatorlara nəzarəti öz yaxın adamı Azər Məhərrəmova tapşırıb.

Neftin qiymətinin düşməsi ilə siyasi iqtidar büdcədən yayındırılan milyonlara nəzarəti gücləndirib. Totalizator oyunlarında da çox böyük pul dövriyyəsindən söhbət gedir və pullar müəyyən şəxslərin ciblərinə axmasına hökumətin göz yummaq kimi lüksü daha qalmayıb...

Milli Məclisin Gənclər və idman komitəsinin iclasında müzakirəyə çıxarılan qanun layihəsi A. Rəhimovun biznesinin faktiki əlindən alınacağı deməkdir. APA-nın məlumatına görə, komitə sədri Fuad Muradovun sədrliyi ilə keçirilən iclasda "Bədən tərbiyəsi və idman haqqında" Qanuna dəyişiklik müzakirəyə çıxarılıb. Qanunun 53-1.5-ci maddəsində "dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanı" sözləri "nəzarət maliyyə bazarlarına nəzarət orqanı" sözləri ilə əvəz edilir. Bildirilib ki, bununla idman mərc oyunları mərc oyunlarına nəzarət qeyd olunan müvafiq icra qurumundan alınaraq yeni yaradılmış Maliyyə Bazarlarına Nəzarət Palatasına verilir.

Qeyd edək ki, "müvafiq icra orqanı" dedikdə Gənclər və İdman Nazirliyi nəzərdə tutulur. Qanuna əlavə edilən 53-1.7 maddədə isə bildirilir ki, "İdman mərc oyunlarının təşkili və keçirilməsinə nəzarəti həyata keçirən maliyyə bazarlarına nəzarət orqanı həmin orqanın müəyyən etdiyi məbləğdə və qaydada idman mərc oyunlarından əldə olunan haqlar hesabına maliyyələşir".

İclasda deputat Adil Əliyev bildirib ki, nəzarətin Gənclər və İdman Nazirliyində qalması daha səmərəli olardı. Deputatlar Şahin İsmayılov və Naqif Həmzəyev isə çıxış edərək bildiriblər ki, dəyişiklik şəffaflığa xidmət etməlidir. N. Həmzəyev nəzarət orqanının ildə bir dəfə parlamentə hesabat verməsini təklif edib və təklif qeydə alınıb. Sonda sənəd Milli Məclisin plenar iclasına tövsiyə olunub. Aydındır ki, komitə üzvləri özlüyündə oliqarx məmurun maraqlarına ciddi zərbə olan qanun layihəsini hazırlamağa həvəsli ola bilməz.

Maliyyə Bazarlarına Nəzarət Palatası prezident İlham Əliyevin fərmanı ilə bu ilin fevral ayının 3-də yaradılıb. Fərmanda bildirilir ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılmasında məqsəd Azərbaycanın qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru) və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində nəzarət sisteminin təkmilləşdirilməsi, həmçinin bu sahələr üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etməkdir. Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyətinin təmin edilməsi ilə əlaqədar Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Aslanlının sədrliyi ilə İşçi Qrupu yaradılıb.

Bu ilin fevralında nazir kürsüsündə 10-cu ilin qeyd edən A. Rəhimov da bir çox nazirlər kimi səlahiyyətlərindən istifadə edərək, biznesini daha da genişləndirib. A. Rəhimov hələ nazir təyinatından əvvəl də bizneslə məşğul olub. Ona məxsus "İtaldizayn" şirkəti dünyanın 100-dən artıq məşhur mebel firmasının rəsmi distribütorudur. Nazirin şəhərin mərkəzində zinət əşyalarının, mebellərin satışı ilə məşğul olan bir neçə elit mağazaları, şadlıq sarayları və iaşə obyektləri var. Amma məhz yüksək dövlət postunu böyük biznesle birləşdirməsi sayəsində A. Rəhimov indi ölkənin ən varlı oliqarxlarından birinə çevrilib.

***

Prezident İlham Əliyevin son fərman və sərəncamlarında oliqarx-məmurların "əl-ayağını" yığmaqda qərarlı olması daha aydın sezilməkdədir. Çünki oliqarx-məmurlar getdikcə hakimiyyətə problemlər yaradır, bəzi hallarda ən yüksək səviyyədə belə verilmiş qərarları ya sabotaj edirlər, ya da tabe olmurlar. Bəzi oliqarx-məmurlar isə o həddə varlanıblar ki, özlərini çox müstəqil hesab edir, hətta siyasi iddialarla da artır. Ən pisi odur ki, oliqarxik sistem iqtisadiyyatın çətin dövründə belə daha çox varlanmaq hərisliyindən əl çəkmir. Bu isə xalqda hakimiyyətə qarşı narazılığı artıra biləcək ən başlıca səbəbdir ki, bu kimi qərarlar həm də onların qarşısına sədd çəkməyə hesablanıb.

❑ **"Yeni Müsavat"**

# TQDK sədri "test sistemi qalacaq" dedi

## Məleykə Abbaszadə: "3 saat abituriyentin öz biliyini göstərməsi üçün tam normaldır"

**Test sisteminin ləğvi ilə bağlı son günlər ictimaiyyəti narahat edən suallara Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə aydınlıq gətirib. Onun "Trend"ə müsahibəsini ixtisarla dərc edirik.**

***- Son zamanlar test sistemi ilə bağlı tənqidi fikirlər səslənir. Sizcə, bu gün daha çox tənqid hədəfi olan qəbul imtahanları ilə bağlı hansısa islahatların aparılmasına ehtiyac var?***

- Biz həmişə imtahanın mahiyyətini, məzmununu, formasını elmi müstəvidə müzakirə edirik. Həmin müzakirələrin keçirildiyi seminarlarda iştirak açıqdır. Bu seminarlarda müzakirə edilən məsələlər daha sonra bu sahədə müəyyən qərarverici funksiyaları olan qurumlar arasında hüquqi müstəvidə müzakirə edilir. Yalnız bu müzakirələrdən sonra həmin qərarlar Ədliyyə Nazirliyində hüquqi sənəd kimi qeydiyyatdan keçir və biz buna riayət etməyə başlayırıq. Məsələn, builki qəbul qaydaları Təhsil Nazirliyi ilə razılaşdırıldıqdan sonra ƏN-də qeydiyyatdan keçib.

Düzdür, dərsliklər dəyişdirilir, biz onların əsasında hansısa mövzuları ya qəbul proqramlarından çıxarırıq, ya oraya daxil edirik. Amma qəbul imtahanları ilə bağlı əsas istiqamətdə hansısa islahatların aparılmasına ehtiyac yoxdur.

***- Gələcək üçün də test sisteminin ləğvi nəzərdə tutulmur?***

- Mərkəzləşdirilmiş imtahanlar indi necə təşkil olunursa - şəffaf, insan faktorundan azad - elə də təşkil olunacaq, insan faktoru yoxlamanın nəticələrinə təsir göstərməyəcək. Biz buna zəmanət veririk. Azərbaycanda kütləvi test imtahanları şəffaf, əsl biliyi qiymətləndirən bir üsuldur. Hazırda bu sistemlə əlaqədar mövcud qanunvericilikdə hər hansı dəyişikliyin aparılması müzakirə mövzusu deyil. Bu sistem qalacaq. Tapşırıqların forması, məzmunu isə proqramlardan və dövlət tərəfindən qəbul olunan normativ sənədlərdən asılıdır. Biz hələ o sənədlərlə işləyirik ki, onlar indiki proqrama aiddir. 3 ildən sonra isə biz yeni standartlara uyğun yeni növ imtahanları aparmağa hazırıq. Mən ona da söz verirəm ki, yazı işlərinin, açıq testlərin olmasına baxmayaraq, o imtahanların nəticələrinə heç zaman insan faktoru təsir göstərməyəcək. Belə texnologiya da bizdə hazırdır, monitorinq imtahanlarında istifadə olunaraq sınaqdan keçirilib.

***- Təhsil naziri Mikayıl Cabbarov hesab edir ki, qəbul imtahanlarının hazırkı forması əmək bazarı üçün müasir, uğurlu məzunun seçilməsinə imkan vermir...***




- Birincisi, ali təhsilli gənclər əmək bazarına bakalavr səviyyəsini başa vurduqdan sonra buraxılırlar. Deməli, əmək bazarına tələb olunan həmin xüsusiyyətləri universitetlərdə formalaşdırmaq mümkündür. İndi bu istiqamətdə çoxmiqyaslı işlər aparılır, SABAH proqramı icra edilir. Amma SABAH proqramı əsasında oxuyan tələbələr bütün tələbələrin az faizini təşkil edir. Nə üçün? Çünki hamını bu proqrama cəlb etmək kifayət qədər çox vəsait tələb edir. İkincisi, 9-cu sinfi bitirəndən sonra şagirdlərin 20%-i əmək bazarına heç bir qəbul imtahanı verməyən qoşulur. Onlar həmin əmək bazarının tələbinə uyğun deyillər, bu xüsusiyyətlər şagirdlərdə 9-cu sinfədək formalaşsaydı, onlar məktəbdən çıxmazdılar. 11-ci sinif üzrə buraxılış imtahanında 2-3 qiyməti alanlar da ali məktəbə sənəd vermirlər. 11-ci sinfi bitirən məzunların 23%-i ali məktəbə sənəd vermir, amma əmək bazarına qoşulur. Deməli, hər il 1-ci sinfə gedənlərin ən azı - 43% heç qəbul imtahanlarına qədər gəlib çatmır. Onlar da əmək bazarını formalaşdırırlar. Onların kompetensiyalarını məktəb formalaşdırmalıdır. Bizim qəbul imtahanlarına gəlib çatanların 18%-i aşağı bal toplayaraq ali məktəbə qəbul olunmur, onlar da əmək bazarına qatılır. Hər il birinci sinfə gedənlərin yalnız 26%-i 11 ildən sonra ali məktəbə qəbul olunur. İndi deyin, hansı rəqəm daha çoxdur - 61% yoxsa 26%? (qalan 10% - peşə liseylərinə və kolleclərə qəbul olanlar, 3% - 9-cu sinfə gəlib çatmayanlar təşkil edir.) Cavab göz qabağındadır. Ona görə də burada hər şeyi test imtahanının üstünə atmaq olmaz.

***- İradlardan biri də budur ki, test imtahanının çatışmazlığı məzunun taleyinin 3 saatda həll edilməsidir. Siz bunu çatışmazlıq hesab edirsiniz?***

- Mən bu iradı yaxşı başa düşürəm. Kimsə bir gün xəstə ola bilər və onun həmin günki nəticəsi real nəticəsindən fərqli ola bilər. Yaxşı olardı ki, qəbul imtahanlarını ildə heç olmasa, 2-3 dəfə keçirmək imkanımız olsun və beləliklə, hər kəs öz vaxtını özü seçsin. 3 saat abituriyentin öz biliyini göstərməsi üçün tam normaldır. İmtahan 3 - 3,5 saatdan çox ola bilməz. Əsas odur ki, sualların sayı fənlər üzrə 25-30-dan az olmamalı, suallar proqramı əhatə etməlidir. Belə halda bizim abituriyentləri bir-birindən fərqləndirmək imkanımız olur.

YENİ MÜSAVAT
N 51 (6372) 4 mart 2016

# Siyasi məhbuslarsız Azərbaycan-martın sonu...

## Azərbaycanla Qərb münasibətlərində Novruz əfvi son şans kimi dəyərləndirilir; Mehman Əliyev: "Əfv olmasa..."

**Bu ilin əvvəllərindən başlayaraq Azərbaycanla Qərb arasındakı münasibətlərdə ciddi dəyişiklik müşahidə olunur. Yeni il əfvi Qərb tərəfindən tənqidlərlə qarşılansa da, Azərbaycan hakimiyyəti münasibətlərdə müsbətə doğru dönüş yarada bilib.**

Bu amillər qarşıdan gələn Novruz bayramında siyasi məhbuslar məsələsini yenidən gündəm mövzusu edib. Bayrama doğru hər keçən gün bir çox siyasi məhbusun azadlığa buraxılacağına olan ümidləri artırır. Xüsusilə Vaşinqtonda Azərbaycan hakimiyyəti ilə təfərrüatı tam açıqlanmayan müzakirələr və razılaşmalar barədə xəbərlər bir çox mətləblərdən xəbər verir. Konqresmen Kristofer Smitin "Turan"ın Vaşinqton müxbirinə açıqlamasında Azərbaycan prezidenti ilə ABŞ-a gözlənilən səfərində görüşəcəyini deməsi Konqresdə sanksiyaların müzakirəsi məsələsini bir qədər də arxa plana atıb. Sanksiyaların müzakirəsinə ehtiyac yaransa belə, Smitlə Azərbaycan rəhbərinin görüşündən sonra qanun layihəsi Konqresdə müzakirəyə çıxarıla bilər. Azərbaycan hakimiyyətinin isə bunun qarşısını almağının yeganə yolu siyasi məhbusları azad etməsidir. Bunun üçün Novruz əfvi son şans kimi dəyərləndirilir. Ekspertlər hesab edirlər ki, ölkə başçısı ABŞ-a siyasi məhbuslarsız gedə bilər. Xüsusilə Qərbin diqqətində olan siyasilərin azad olunacaqları deyilir.

Novruz əfvinə olan ümidlərin yüksəlməsinə səbəb kimi başqa amillər də var. ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekutanın günlər öncə ölkəmizdəki bir illik fəaliyyəti ilə bağlı yazdığı geniş məqalə, AŞ PA prezidenti Pedro Aqramuntun Bakıya səfəri, siyasi məhbus ailələri və həbsdəki REAL sədri İlqar Məmmədovla həbsxanadakı görüşü, eləcə də Qərbin son aylarda bəzi məsələlərdə Azərbaycana açıq dəstək verməsi münasibətlərdə ciddi dönüş nöqtəsi kimi qiymətləndirilir. Azərbaycan tərəfinin Qərblə yaxınlaşmaqda maraqlı olduğu məlumdur. Bu baxımdan Novruz əfvində Azərbaycan hakimiyyətinin Qərbə daha da yaxınlaşmaq üçün bir çox siyasini azad edəcəyi versiyaları daha inandırıcı görünür.



**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev siyasi məhbuslar məsələsinin həllinin vacib olduğunu söylədi:** "Ötən ilin sonlarında bir sıra siyasi məhbusların azadlığa buraxılması gündəmdə idi. Amma Smitin təşəbbüsündən sonra Azərbaycan hakimiyyəti bunu təzyiq kimi qiymətləndirdi. Nəticədə proses dayandı. Amma getdikdə ölkəmizdə iqtisadi durum pisləşməyə başladı. Sonda 21 dekabr devalvasiyası oldu. Vəziyyət getdikcə ağırlaşır. Azərbaycan tərəfi yaxşı anlayır ki, heç bir möcüzə baş verməyəcək, Qərblə münasibətlər vacibdir. Qərbin maliyyə baxımından dəstəyini almağın vacibliyini hər kəs anlayır. Bu, strateji məsələdir. Aqramuntun gəlməsi ona hesablanmışdı ki, Azərbaycan tərəfi nəyə getməyə hazırdır, nə təkliflər edir. Bunların hamısı bir-birinə bağlı məsələlərdir. Bir çox siyasi məhbusların azad edilməsi məsələsi ciddidir və gündəmdədir. Belə bir əfv gözlənilir. Danışıqlar zamanı hansı şərtlərin qəbul edildiyi, öhdəliklər götürüldüyü başqa məsələdir. Amma bütövlükdə gündəm dəyişir. Azərbaycan islahatlara getməyə məhkumdur. Bu da Qərbin iştirakı və dəstəyi ilə mümkün olacaq".

**"Turan" rəhbəri Azərbaycan prezidentinin ABŞ-a gözlənilən səfərinə də toxundu:** "Bizim üçün əsas ölkəmizdə demokratiya məsələsində olan problemlərin həllidir. Nüvə sammiti çərçivəsində Azərbaycan rəhbərinin Barak Obama ilə görüşü gözləniləndir. Azərbaycan tərəfi mühüm addımlar atmağa başlayıb. Prosesin davamı üçün Azərbaycan-ABŞ prezidentlərinin görüşü baş tuta bilər. Əks halda, heç bir görüş də olmayacaq, nüvə sammitinə getməyin isə heç bir əhəmiyyəti qalmayacaq. Əfv olmasa, prezident nüvə sammitinə getməyəcək. Qərbin də hakimiyyətə qarşı təzyiqləri daha da güclənəcək".

**Politoloq Qabil Hüseynli Novruzda geniş əfvin olacağı barədə xəbərlərin inandırıcı olduğunu qeyd etdi:** "Əfv Komissiyasının yeni üzvlərindən olan Əliməmməd Nuriyev bildirmişdi ki, geniş əfv hazırlanır. Bu da belə fikir formalaşdırır ki, siyasi məhbus adlanan şəxslər əfv siyahısına düşə bilərlər. Azərbaycan qərbyönlü siyasətini daha da gücləndirir. Eyni zamanda Azərbaycan ABŞ-la münasibətləri yaxşılaşdırır, Smitin hazırladığı layihənin həyata keçməməsinə çalışır. Ölkəmiz müəyyən siyasi manevrlər edəcək. Bunların içərisində Novruzda olacaq əfv də proseslərə təsir edəcək mühüm amil olacaq. Əfvin içərisində siyasi məhbusların olacağını ehtimal etmək olar".

❑ **Cavanşir ABBASLI**

# Qatil dayə hekayəti: ölkəmiz də təhlükədən sığortalanmayıb

## Dəyanət Rzayev: "Dayə götürərkən onun ucuz olmasına fikir verildiyindən belə faciəli nəticələr ortaya çıxır"

**Bir neçə gün öncə Rusiyada 4 yaşlı uşağa dayəlik edən, Özbəkistan vətəndaşı olan qadın onun başını kəsib. Qadın əlində uşağın başını yelləyərək "Allahu-Əkbər" qışqırırmış. Məlum olub ki, qadın 15 il şizofreniyadan müalicə alıb və qətli törədərkən də kəskin ruhi pozğunluq halında olub.**

Bu qorxunc cinayət dayələrlə bağlı məsələni bir daha gündəmə gətirib. Sosial şəbəkələrdə dayələrin azyaşlı körpələrə fiziki işgəncə verməsi ilə bağlı videogörüntülərin sayı da son vaxtlar artıb.

Qeyd edək ki, Azərbaycanda da bir çox valideynlər işlədikləri üçün övladlarını dayələrə etibar etməli olurlar. Ölkəmizdə əcnəbi dayələrin sayı da kifayət qədərdir. Avropa ölkələrinin bir çoxunda dayəliklə məşğul olan firmalar var. Bu firmalar dayə seçərkən onların sağlamlığına, psixikasına, uşaqlarla davranışına, təcrübəsinə diqqət edirlər. Azərbaycanda isə analar dayə seçərkən övladına yaxşı baxa biləcək, səmimi, dürüst, etibarlı insan tapmağa çalışır. Əslində isə uşağın etibarlı yerdə olması, qorunması, yeməyinin yedirdilməsi, yuxu zamanı yatırdılması analar tərəfindən kafi hesab edilsə də, təəssüf ki, yetərli deyil. Mütəxəssislərə görə, körpənin inkişafı, çəkisinin artması məqsədilə doğru qidalarla qidalandırılmaqla yanaşı, sevgi də lazımdır. Uşaqla isti və sevgi dolu ünsiyyət quran, uşağın psixologiyasını bilən bir dayə olmalıdır. Təəssüflər olsun ki, valideynlər dayə seçərkən bu cür kriteriyalara diqqət etmədikləri üçün faciəli və mənfi situasiyalarla rastlaşırlar.

**Psixoloq Dəyanət Rzayev bir insana psixi diaqnoz qoyulmasının bir aya yaxın vaxt apardığını dedi:** "Amerika, Avropa ölkələrində dayəliklə məşğul olan xüsusi firmalar var. Bu firmalar ailələrə dayələr tapır. Onlar çox peşəkar səviyyədə işləyir. Orada dayələrin əsəb dispanserində qeydiyyatda olub-olmamasına dair arayışları var. Bizdə isə istənilən insan əsəb dispanserinə gedib orada qeydiyyatda olmadığına dair bir arayış gətirə bilər. Amma bu insanın əsəb dispanserində qeydiyyatda olmaması onun sağlam olması demək deyil. Baş verən sonuncu hadisədə də görünür ki, dayənin psixi problemləri olub. Psixoterapiyada diaqnoz müşahidə nəticəsində qoyulur. Bu sahədə heç bir aparat, qurğu yoxdur ki, bu insanı yoxlasın ki, xəstədir ya deyil. Ən azı bir ay müşahidədən sonra insanın psixikasının sağlam olub-olmamasına dair diaqnoz qoyurlar. Rusiya və digər keçmiş sovet məkanlarında bu cür hallara fikir vermirlər. Kimsə məsləhət görür ki, bu yaxşıdır, götürürlər. Demirlər ki, get, sağlamlıq haqda arayış gətir. Qiyməti münasib olsun, vəssalam. Dayə götürərkən ən çox onun pulunun ucuz olmasına fikir verdikləri üçün bu cür faciəli nəticələr ortaya çıxır. Əvvəllər dayələr yox idi. Uşağa nənə, baba, qohumlar baxırdı".



## Adil Qeybulla: "Uşaqlarla məşğul olan hər kəs spesifik kurs və müayinədən keçməlidir"

**Psixoloq Azərbaycanda dayə tapan firmalar olsa da onların peşəkar olmadığını bildirdi:** "Təəssüflər olsun ki, indiki zamanda dayə seçmək çətindir. Düzdür, Azərbaycanda da firmalar var ki, dayələr təşkil edir. Ancaq onların peşəkarlığı yüksək deyil. Dayələri taparkən onları hərtərəfli araşdırmır, yoxlamırlar. Sadəcə olaraq, vasitəçilik edirlər. Elan verirlər, kimin iş-gücü yoxdursa, müraciət edir ki, mən dayəyəm. Qədimlərdə elit ailələrdə dayələr olurdu. Bu dayələr musiqidən tutmuş, yazıb-pozmaya qədər hər şeyi bilirdilər. Amma indi dayənin ancaq yemək bişirə bilməsinə, bir də uşağa baxa bilməsinə fikir verirlər. Dayə mərhəmətli, mehriban, uşağa qarşı həssas olmalıdır".

**Dəyənin işə götürülmədən əvvəl həkim müayinəsindən keçməsinin vacibliyinə gəlincə isə tibb elmləri doktoru, professor Adil Qeybulla onların həkimdən sağlamlığa dair kağız gətirməsinin vacib nüans olduğunu dedi:** "Əslində bu sahə tam nəzarətdə olmalıdır. Dayələr qeyri-leqal ödəmələr alırlar. Beləcə, vergidən də yayınırlar. Uşaqlarla məşğul olan hər kəs spesifik kurs keçməlidir. Uşaqların bəzilərində autizmə meyllilik olur. Bu cür uşaqlarla vaxt keçirmək, məşğul olmaq çox ciddi məsələdir. Dayəliklə bağlı məsələlərdə peşəkarlığa diqqət etmək lazımdır. Təəssüflər olsun ki, bizdə bu işlər daha çox peşəkarlıqla deyil, inam və məbləğlə bağlı məsələlərlə görülür. O da nəticədə faciəli hadisələrə səbəb olur. Uşaq psixologiyasını bilməyən, uşaqla işləmək qabiliyyəti olmayan şəxslər uşağın tərbiyəsi ilə məşğul ola bilməzlər. Həmçinin dayə işi mütləq leqal olmalı, qanun çərçivəsində tənzimlənməlidir. Dayənin sağlamlığı haqqında kağızının olması da vacibdir. Əks halda, başqa problemlər yaşana bilər".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 51 (6372) 4 mart 2016

**İsmayıllı Rayon Polis İdarəsinin rəisi vəzifəsindən azad edilən Nizami Qocayev Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin Gəncə şəhəri üzrə İcra İdarəsinin rəisi vəzifəsinə təyin olunub.**



# Nizami Qocayev yeni vəzifəsi haqda danışdı

## Məmməd Zeynalov: "Ora professional kadrın təyinatı vacibdir"

Məsələyə Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi, polis polkovniki Sadiq Gözəlov münasibət bildirib. Xidmət rəhbəri APA-nın sorğusuna cavabında polis polkovniki Nizami Qocayevin uzun müddət DİN sistemində rəhbər vəzifələrdə çalışdığını, hər zaman dövlətçiliyə, xidməti anda sədaqəti ilə seçilən peşəkar polis zabitlərindən biri olduğunu vurğulayıb: "Bəzi kütləvi informasiya vasitələrində polis polkovniki Nizami Qocayevin tutduğu vəzifədən kənarlaşdırılması barədə yayılan məlumatların heç bir əsası yoxdur. Sadəcə, bundan sonrakı xidmətini ədliyyə orqanlarında davam etdirmək arzusu nəzərə alınıb və o, Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən bu orqanın İcra Baş İdarəsinin Gəncə şəhəri üzrə İcra İdarəsinin rəisi vəzifəsinə təyin olunub".

Yada salaq ki, artıq ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyində ötən ilin oktyabrında həyata keçirilən məlum əməliyyatdan sonra qurumun rəhbərliyinə Penitensiar Xidmətin sabiq rəisi Mədət Quliyev təyinat almışdı. Sonradan MTN iki yerə parçalanaraq ləğv olundu və yeni yaradılmış Dövlət Təhlükəsizlik Xidmətinin rəisi vəzifəsinə Mədət Quliyev təyin olundu. Həmin vaxtdan Penitensiar Xidmətin rəisi vəzifəsinə kimin təyin olunacağı sualı bir daha aktuallaşdı.

Hazırda Penitensiar Xidmətin rəisi vəzifəsini rəis müavini Hüseyn Əlixanov icra edir. Quba rayonunda anadan olmuş H.Əlixanov ədliyyə sisteminə prokurorluq orqanından gəlib. Bakı Şəhər Prokurorluğunun baş müstəntiqi, Gəncə şəhər prokuroru, Bakı Şəhər Prokurorluğunun daxili işlər orqanlarında qanunların icrasına nəzarət şöbəsinin rəisi, Bakı şəhər prokurorunun birinci müavini vəzifələrində qulluq edib, Bakı şəhər prokuroru vəzifəsini icra etmiş, respublika Baş Prokurorluğunun Prokurorluq orqanlarında istintaqa nəzarət idarəsinin rəisi, Bakı şəhər Nizami rayon prokuroru vəzifələrində xidmətdə olub.

### 2004-cü ildə ədliyyə orqanlarında xidmətə keçib...

Nizami Qocayevin regional icra idarəsindən Penitensiar Xidmətə gətiriləcəyi ilə bağlı iddialara daha bir amil rəvac verir.

O, 1999-cu ildə bir sıra ağır cinayətlərdə ittiham olunaraq azadlıqdan məhrum edilib. Həmin dövrdə N.Qocayev Məhkəmə Qərarlarının İcrası Baş İdarəsi adlandırılan qurumun tabeçiliyindəki müəssisələrdən birində saxlanılıb. N.Qocayevin bioqrafiyasında yer alan həmin müddətdə o, qurum rəhbərlərinin verdiyi qərarların icrasının məhkumların həyatına necə təsir etdiyini şəxsi təcrübəsində görüb. Məlumat üçün deyək ki, N.Qocayev məhkəmə tərəfindən ona verilən cəzanın bir hissəsini çəkdikdən sonra dövlət başçısı tərəfindən əfv olunub, bəraət alıb. Bundan sonra yenidən daxili işlər orqanlarına bərpa olunmaqla 2016-cı ilə qədər DİN sistemində qüsursuz xidmət aparıb. Hazırda DTX rəisi postunu tutan Mədət Quliyev də 2006-cı ildən Penitensiar Xidmət adlandırılan qurumun rəhbərliyinə gətirilənə qədər DİN sistemində çalışmışdı...

**N.Qocayevin yeni təyinatdan sonra ilk açıqlaması da onun daha böyük vəzifə iddiasında olması ehtimalını gücləndirir. Sitat:** "Nə vəzifədir ki? Elə də böyük vəzifə deyil". Kollektivə təqdim olunmasına gəlincə, N.Qocayev hələlik təqdimatın olmadığını bildirib.(mia.az)

**"Yeni Müsavat"ın əməkdaşı Penitensiar Xidmətin rəisi postuna təyinatla bağlı vaxtilə qurumun rəhbəri olmuş Məmməd Zeynalovun fikirlərini öyrənib. M.Zeynalov deyib ki, Penitensiar Xidmətdə qulluq DİN sistemindəki qulluqdan xeyli fərqlənir:** "Penitensiar Xidmət spesefik sahədir və rəhbərlikdə səriştəli şəxsin olması vacibdir. Hazırda Mədət Quliyevi həmin postda əvəz edən Hüseyn Əlixanov təcrübəli kadrdır. O, həmin vəzifənin öhdəsindən layiqincə gələ bilər".

**M.Zeynalov hesab edir ki, bununla belə, qurumun rəhbərliyinə kənar şəxsin də gətirilməsini istisna etmir:** "Digər şəxsin təyinatı da mümkündür. Həmin şəxs yaxşı təşkilatçı olsa, müavinləri vasitəsilə xidməti normal idarə edə bilər. Ora professional kadrın təyinatı vacibdir. Ölkənin bütün cəzaçəkmə müəssisələri həmin şəxsin verdiyi qərarlardan, idarəçilik bacarığından asılıdır. Nizami Qocayevin hazırda təyin olunduğu bölmə rəhbərliyi ədliyyə sistemində elə də böyük vəzifə deyil".

**M.Zeynalov N.Qocayevin Penitensiar Xidmətin rəisi postuna gətirilmə ehtimalı ilə bağlı bunları deyib:** "Nizami Qocayev dustaq olub, oradakı durumu digər rəhbərlərdən fərqli olaraq daha dərindən bilir. Nizami Qocayevin həbsinin qanunsuz olmasını bir kənara qoyaraq həbsdə olduğu müddəti təcrübə kimi də qəbul etmək olar. Penitensiar Xidmətin rəhbərliyi böyük, məsul vəzifədir. Mən deməzdim ki, polisə nisbətən asan vəzifədir. Rayon polis idarəsinin rəisi birbaşa əhali ilə işləyən şəxsdir. Penitensiar Xidmət rəisi isə əhali ilə işləmir, quruma tabe olan müəssisələrdə ən müxtəlif cinayətlərə görə saxlanılan kontingentlə işləməlidir".


Məmməd Zeynalov

**Məmməd Zeynalov Penitensiar Xidmətdə ciddi islahatlar aparılmasının zəruri olduğunu deyib:** "Nəhayət ki, qanunlarla işləmək lazımdır. Qanunları kənara qoyub daxili qaydaları rəhbər tutmanın zamanı deyil. Qanun dustağın azad edilməsinə imkan verdiyi təqdirdə, şəxsi istəklə onun həbsdə saxlanılmasına son qoyulmalıdır. Belə neqativlər var və bunlar aradan qaldırılmalıdır".

**M.Zeynalov "daxili qaydalar"ın tətbiqini yeni rəhbərliyin aradan qaldıracağına inanmır:** "Bu məsələ Penitensiar Xidmət rəhbərliyini aşan bir məsələdir. İnanmıram ki, yeni təyin olunan rəis bu qaydaları qanunların tətbiqi ilə əvəz edə bilsin. Çünki Penitensiar Xidmətin rəisi icraçıdır və ona yuxarıdan verilən tapşırıqların icrasını təmin edir".

**E.MƏMMƏDƏLİYEV**

# 12 terrorçunun adı Mərkəzi Bankın "qara siyahı"sına salındı

**Azərbaycan Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti BMT Təhlükəsizlik Şurasının "Əl-Qaidə" Sanksiya Komitəsinin fevralın 29-da qəbul edilmiş qərarlarına uyğun olaraq martın 3-də ümumi siyahını yeniləyib.**

Xidmətdən virtualaz.org saytına verilən xəbərə görə, ümumi siyahı Nazirlər Kabinetinin 25.06.2010-cu il tarixli 124 nömrəli Qərarı ilə təsdiq edilmiş "Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə BMT Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə əsasən barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin Ümumi Siyahısının təsdiq olunması Qaydası"na əsasən yenilənib.

Məlumata görə, 12 nəfərin adı siyahıya əlavə olunub. Onların 11-i "əl-Qaidə", 1-i isə İŞİD qruplaşmasının üzvü olmaqda şübhəli bilinirlər. Həmin şəxslərin adı Abd Al-Baset Azzouz, Gulmurod Khalimov, Nusret Imamovic, Muhannad Al-Najdi, Morad Laaboudi, Ali Musa Al-Shawakh, Hasan Al-Salahayn Salih Al-Sha'ar, Mounir Ben Dhaou Ben Brahim Ben Helal, Mohammed Abdel-Halim Hemaida Saleh, Salim Benghalem, Abu Ubaydah Yusuf Al-Anabi, Harakat Sham Al-Islamdır.

Qeyd edək ki, ümumi siyahının son versiyası Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet səhifəsində (http://www.fiu.az/aze/umumi-siyahi/) yerləşdirilib, habelə aidiyyəti nəzarət orqanlarına, monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslərə göndərilib.

# İşıqforun yaşıl işığını gözləyən it



Samir SARI

**İnternet resurslarında belə epizodları çox görmüşük, amma real həyatda müşahidə etməmişdim, srağagün evə gedəndə, Tbilisi prospektindən "20 Yanvar" metrostansiyasına tərəf, Həsən Əliyev küçəsinə burulmağa bir işıqfor məsafəsi qalmış onu da əyani şəkildə gördüm.**

Deməli, yolun düz kənarında bir sahibsiz it dayanmışdı, məlul-müşkül halda yola baxırdı. İşıqforun işıqları dəyişdi, yəni avtomobillərin hərəkətini dayandıran qırmızı işıq yandı və yolun hər iki qanadı ilə şütüyüb gedən maşınlar dayananda həmin it hərəkətə gəldi, əmin-arxayın bir şəkildə yolu o taya, Salyan kazarması səmtə keçdi.

Düzü, buna çox heyrət etdim. İtlərin vəfalı olduqları qədər də ağıllı məxluq olduqlarını bilirəm, amma bir iş də var ki, onlar yol hərəkəti qaydalarına o qədər də riayət etmirlər. Yollarda maşınlar ən çox məhz itləri vururlar. Mənim gördüyüm it isə özünü çox nümunəvi apardı. Əlbəttə, bu, sırf instinktlərlə bağlı məsələdir. Çox güman ki, it işıqforun qırmızı və ya yaşıl işığından baş çıxarmır, sadəcə, başa düşür ki, maşınların hərəkətdə olduğu vaxt yolu keçmək həyat üçün təhlükəlidir. O da ola bilər ki, əvvəllər yolu məsuliyyətsizcəsinə keçərkən o itin başına iş gəlib, yüngülvari xəsarət-zad alıb və birdəfəlik anlayıb ki, yolu belə keçmək olmaz.

Bəs bir çox insanlar nəyə görə bu adi, primitiv həqiqəti başa düşmürlər və həyatlarını təhlükəyə atırlar?

O hadisənin, yəni küçə itinin yolu işıqforun yaşıl işığında keçməsi olayının ertəsi günü, səhər saat 9 radələrində "Elmlər Akademiyası" metrostansiyasının önündə isə tam əks mənzərənin şahidi oldum. Qırmızı işıq yanmış, avtomobillər dayanmışdı. Piyadalar sərbəstcə yolun o tərəf-bu tərəfinə keçirdilər. Ancaq nəhayət, piyadalara qırmızı, maşınlara yaşıl işıq yandı. Avtomobillər hərəkətə gəldi, amma hər yaşdan olan piyadalar hərəkətlərini dayandırmadılar, ötüb keçən maşınların arasından keçir, özlərini avtobusların, ciplərin qabağına ataraq yolun əks tərəfinə adlamağa cəhd edirdilər. Bu, onların hərəkəti üçün çox təhlükəliydi.

Çünki bəzi sürücülər yaşıl işığın yandığını görən kimi şütüyüb getməyə çalışırdılar və bu zaman piyadaları nəzərə almırdılar. Sürücü də, piyada da hövsələsiz olanda olmur, təhlükə yaranır. Tərs kimi, bizdə həm sürücülər, həm də piyadalar çox hövsələsizdirlər. Üstəlik, piyadalar avtomobildən qorxmurlar. Evdə yumruq boyda siçandan qorxan qadınlar dəvə boyda maşından çəkinmir, hətta sürücüyə acıqlanırlar: "Aaa, görmürsən, adam keçir?"

Dost-tanış deyir ki, bu hadisə hər gün təkcə "Elmlər Akademiyası" metrostansiyası tərəfdə baş vermir, "Nərimanov" və "28 May" metrostansiyasının yaxınlığında da baş verir. Hətta "28"-də polislər də olur və nə qədər çalışırlar insanları yolu qırmızı işıqda keçməkdən vaz keçirə bilmirlər. Şahidlər and içir ki, "28 Mall" ticarət mərkəzinə keçənlər və ordan çıxanlar yolun əks tərəfinə ellikcə söyüş qoymuş adam kimi keçirlər - hamısı qaydanı pozaraq. Bu üzdən hər gün orda qəza vəziyyətləri yaranır. Yaxşı ki, bu yoldan çox istifadə edən sürücülər yolun yazılmamış qayda-qanunlarını bilirlər, ona görə də avtomobillərini yavaş sürür, yaşıl işıqdan sui-istifadə etmirlər.

İndi bəzi dostlar deyir ki, eh, sən nəyi qoyub, nəyi axtarırsan, ölkədə bu qədər adamın hüquqları pozulur, bu qədər qanunsuzluqlar, bir belə qayda-qanun pozuntuları var, beş adam yol-hərəkət qaydasını pozsa nə olacaq ki.

Elə deyil. Birincisi, ən elementar qayda-qanunlara riayət etməyən, hər dəqiqəbaşı yazılmış və yazılmamış qanunları pozan camaatın dürüst seçki keçirməsini, demokratiya prinsiplərinə riayət etməsini, haqq-ədalət davası aparmasını gözləmək absurddur. Heç ola bilməz ki, adam maşınların şütüdüyü vaxt yolu keçməyin həyat üçün təhlükəli olduğunu bilmir, amma seçki hüququnu, dövləti idarə edənlərin xalqın iradəsi ilə seçilməli olduğunu bilir. Böyük ehtimalla o, bunların heç birini bilmir.

Açığı, qırmızısı budur: insan olmaq hələ yüksək, ali şüura malik olmaq demək deyil. Bu ölkədə bir çox insanlar özlərini instinktlərlə idarə edirlər, özü də yatmaq, durmaq, yemək, cütləşmək, ünvana getmək kimi əsas instinktlərlə.

Təcrübə göstərir ki, zamanla bunu bir sıra heyvanlar da bacarır. Məsələn, Tbilisi prospektində işıqforun yaşıl işığını gözləyən küçə iti kimi. O da yolu keçməyi bacarır, amma səs verməyi bacarmır.



# Almaniyada kanalizasiya

Zamin HACI
zaminhaci@gmail.com

**Bakıdakı özəl universitetlərdən birinin rektoru ali məktəbi cəmi 2 il qabaq bitirən oğlunu özünə prorektor təyin etmişdir. Əhsən. Elə sevindim ki. Millət artıq trendi, inkişaf istiqamətimizi tutaraq düzgün yolla getməkdədir. Rəhmətlik Rac Kapurun kinosunda deyilən kimi, prokurorun oğlu prokuror, oğrunun oğlu oğru olacaqdır, Ya Qarabağ, ya ölüm, Başqa yolu yox artıq!**

Ümumiyyətlə, çalışmaq lazımdır kimsə öz atını deputatxanaya üzv də eləsin. Bununla biz Qədim Roma hüququ ənənələrinə çıxış əldə edərək Avrasiya regionunda yeni sivilizasiyanın əsaslarını qoyarıq. Doğrusu, xəbərim yoxdur, bəlkə də artıq kimsə öz atını qanunverici orqana salmışdır. Nə biləsən... Guya hamını tanıyırıq? Örnək üçün, elə o universitet rektorunun oğlunu prorektor, qızını dekan, bacanağını professor, yeznəsini Elmi Şura rəhbəri qoyması haqda xəbərin düz altında yazılmışdı: “Deputat Hacı Salayevin oğlu öz hotelində qumarxana açıb”. Guya siz belə deputatımız olduğunu bilirdiniz? Şəxsən mən bilirdimsə, başıma Oqtay müəllimin kreslosu ağırlığında daş düşəydi. Nəinki deputatı və oğlunu tanıyırdım, hətta orda bir hotel adı yazmışdılar, bina şəkli qoymuşdular, izah eləməsələr sanardım harasa xarici ölkədir. Yapistlər düzgün qeyd edirlər, ölkəmizə yadlaşıb getmişik.

Ancaq qürur duyduğumuz insanlar da vardır. Türkiyədə universitet oxuyan iki gənc azərbaycanlı tələbə bonzai adlı narkotikdən yararlanaraq ölümcül duruma düşüblər. Biz onların orda oxuyub gəlib buraları düzəldəcəyinə ümid edirik, onlar isə bonzai çəkirlər. Bəs nə eləsinlər? Axı Azərbaycanda əsas dövriyyə vasitəsi narkotikdir. Yapistlər kimi tutmaq istəsələr, onun cibindən mütləq narkotik də “tapılır”. Minimum 3-5 qram hər kəsin cibində olmalıdır, yoxsa müxalifətçi sayılmaz. Bu gənclər də narkotikin elmini öyrənirlər, düzü, bir az pis günə düşüblər, inşallah, sağalıb yeni narkotik biliklər əldə edərlər, bizə öyrədərlər. Açığı, mən onların sayəsində bonzai adlı narkotikin olduğunu öyrəndim, haqqında bilgilər topladım. Sən demə, heroindən 100 qat təhlükəli bir maddə imiş. İlk istifadədə öldürə bilən bir zəhər imiş. Görək gələcəkdə hansı müxalifətçimizin, jurnalistimizin cibindən bonzai “çıxarılacaqdır”.

Şeytan detallarda gizlənir, biz hər bir xırda şeyə, o cümlədən zada diqqətlə yanaşmalıyıq. Kosmos əsridir. Dünya xalqları ən kiçik zərrəciyin ən xırda hissəsi boyda olan qravitasiya dalğasını tutur. Yaxud görürsən kosmosda uçduğun yerdə qarpız dənəsi boyda bir peyk qırıntısı - buna kosmik zibil deyirlər - gəldi girdi raketə, peşmançılıq oldu, təpəsi üstdə gumbultuyla düşdün Bakının analoqu olmayan bulvarında kaktusun üstünə.

Bax, mən son vaxtlar elə bu cür xırdaçılıq eləməyə başlamışam, dünyaya inteqrasiyamı bu üsulla edirəm. Azərbaycanın istehsal elədiyi yüksək texnologiyalı cihazların... zarafat edirəm, qorxmayın - milli istehsalımız olan günəbaxan tumlarının və bəzi xırda-mırda şirniyyatın qabını açmaqda çətinlik çəkirəm. Misal üçün, qutunun üstündə “Buradan açın” deyilən bir yazı olur, ancaq həmin yerdən də açmaq olmur. Heç bir önəmi olmayan yazılardır. Hardan dartsan açılmır, mütləq gərək dişinə salıb gəmirəsən. Bu da onunla bağlıdır ki, Azərbaycanda açıq cəmiyyət yoxdur. Hər yer bizim üzümüzə bağlıdır, o cümlədən hansısa qotur və yoluq firmanın zibilxanada istehsal elədiyi günəbaxan tumlarının kisəsi! Sən tum qabını dişinlə-dırnağınla açırsansa, belə vilayətdə necə yaşayasan? Hər şey bundan başlanır. Zarafat eləmirəm.

İnternetdə bir videoya baxmışam: Almaniyada asfalt yolda bir az batmış kanalizasiya lyuku qapağının təmiri haqda idi. Bizim şəhərlərdə, yollarda görmüsünüz, asfalt çəkildikcə yol qalxır, lyuk batır, insanlar avtomobillərini taqqıltı ilə bu çalalara salmaqla zülm çəkirlər, bir dövlət idarəsinin də vecinə olmur. Almanlar isə cəmi 1 santimetrə yaxın aşağı düşmüş lyuk qapağını qaldırmaq üçün dastan yazdılar. Bir sürü adam gəldi, bir düjün texnika işə girişdi, lyukun qapağını, yalan olmasın, üç öpüb bir düşləyib qaldırdılar, yolla eyni səviyyədə elədilər.

Sən fikirləşirsən ki, rəhmətliyin uşağı, bir lyuk qapağına bu qədər fikir verərlərmi, cəhənnəm olsun... Ancaq alman fikirləşmir. Çünki ölkənin çökməsi adətən elə o lyuk qapağının bir santimetr çökməsindən başlayır.

# Atom bombası olan yeganə dostumuz- Pakistan

## Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin Bakı səfərinin pərdəarxası

**Atom bombası olan yeganə dostumuz Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Rəşad Mahmud başçılıq etdiyi nümayəndə heyəti ilə Bakıya səfər edib.**

Pakistanlı nümayəndələr burada Azərbaycan rəsmiləri ilə görüşərək, fikir mübadiləsi aparıblar.

General Rəşad Mahmudun başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfərindən sonra iki ölkə arasında hansı əməkdaşlıqların inkişafı gözlənilir?

Məsələ ilə bağlı musavat.com-a danışan **Azərbaycan Diplomatiya Akademiyasının professoru, ekspert Elnur Soltanov** bildirib ki, Pakistanın Azərbaycana görə Ermənistanla əlaqələrini kəsməsi çox şeydən xəbər verir:

“Pakistan Azərbaycan dövləti ilə yanaşı, millətimiz üçün də dəstək dövlətdir. Pakistanla münasibətlərimiz daha çox təhlükəsizlik və siyasi əməkdaşlıq üzərində qurulub. Bu bir tərəfdən yaxşıdırsa, digər tərəfdən isə bir qədər təəssüf doğuran haldır. Çünki Pakistanla iqtisadi əməkdaşlığımız çox da güclü deyil. Bunun səbəblərindən biri Pakistanın coğrafi olaraq Azərbaycandan xeyli uzaqda yerləşməsidir. Ticarət əlaqələri ya regional, ya da qlobal bazada olur. Lakin bunu təkcə Pakistana şamil etmək olmaz. Eyni məsafədə olan digər dövlətlərlə də bu baxımdan müəyyən problemlər yaşayırıq. Ancaq Dağlıq Qarabağ məsələsində Pakistanın hər zaman diplomatik dəstəyini hiss etmişik. 1990-cı illərdə xarici ölkələrdə Azərbaycanın diplomatik missiyaları ilk dəfə yaradılan zamanlarda Türkiyə ilə bərabər dövlətimiz Pakistanın da dəstəyini görüb. Həmin zamanlar Azərbaycanın xariclə əlaqələri indiki kimi deyildi. Pakistanda isə səfirliklər daha öncə yarandığı üçün dünya ilə əlaqələri bizimlə müqayisədə geniş idi. Bu istiqamət üzrə zamanında Pakistan Azərbaycana öz yardımını edib”.



Rəşad Mahmud

**E. Soltanov bildirib ki, Pakistanın daxil olduğu beynəlxalq təşkilatlarda Azərbaycanla bağlı hər hansı bir məsələ müzakirə olunduğu zaman onlar avtomatik olaraq bizim mövqeyimizə uyğun davranırlar:** “Azərbaycan üçün Türkiyə birincidirsə, ikinci olan Pakistandır. Azərbaycanla Pakistan arasında bəzi silahların alınması məsələsi müzakirə edilirdi. Məsələn, onların Çinlə birlikdə istehsal etdikləri qırıcı təyyarələrini almaq istəyimizi buna misal göstərmək olar. Bu aspektdə münasibətləri nə qədər konkretləşdirsək, o qədər fayda görərik. Çünki münasibətlər romantik diplomatik münasibətlərdən bir nöqtədə qərarlaşmalıdır. Diqqət edək ki, bizim Türkiyə ilə münasibətlərimiz zaman keçdikdə daha da inkişaf etdi və müəyyən bir müstəvidə qərarlaşdı. Çünki Türkiyə ilə biz romantik, qardaşlıq münasibətlərini çox ciddi iqtisadi təməllər, böyük layihələr üzərinə gətirməyi bacardıq. Pakistanla da bu tip əlaqələr qurulmalıdır. İki ölkə arasında sıx münasibətlər mövcuddur. Bunu iqtisadi yönə gətirərsək, konkret layihələr üzərində dayanarsaq hesab edirəm ki, daha da böyük uğurlara nail olarıq. Zatən digər baxımdan biz hər zaman Pakistanın dəstəyini görmüşük və görməkdəyik”.

**General Rəşad Mahmudun Bakıya səfərinə gəlincə isə ekspert bildirib ki, bu tip səfərlər zamanı adətən görüşün hüquqi sənədləşmə aspekti olur:**

“Bu sənəd sırf olaraq görüşün ciddiyyətinin ifadəsi olaraq ortaya qoyulur. Ancaq funksional olaraq çox da əhəmiyyət kəsb etmir. Eyni zamanda səfər zamanı hər hansı bir memorandumun imzalanmaması protokola uyğun olmaz. Burada mühüm olan bu görüşün arxasında nəyin duracağıdır. Bizim isə Pakistanla yuxarıda da qeyd etdiyim kimi, anlaşmamız təhlükəsizlik sahəsində ola bilər. Bunun isə ya silah sistemləri, ya da təlimlər mövzusunda olması mümkündür. Lakin detallar barəsində nə isə söyləmək çətindir”.

❑ Əli RAİS

# “The Washington Times”dan Qarabağda müharibə xəbərdarlığı

## Nüfuzlu Amerika nəşrinə görə, Rusiya Ermənistanı Türkiyə ilə münaqişəyə sürükləyir; “Ermənistan regionda təklənib...”

The Washington Times

**Rusiya-Türkiyə münasibətlərində davam edən gərginlik Qərb analitiklərinin də diqqət mərkəzindədir. Siyasi təhlilçilər mövcud durumdan çıxış edərək iki regional supergüc arasında əlaqələrin mümkün perspektivlərini və nəticələrini analiz və təxmin etməyə çalışırlar. Bu zaman təbii ki, ilk öncə Ankara və Moskvanın köklü maraqlarının kəsişdiyi regionlardakı situasiya diqqətə alınmaqdadır.**

Belə regionlar isə hazırda əsasən ikidir - Suriya (Yaxın Şərq) və Güney Qafqaz (Dağlıq Qarabağ münaqişəsi zonası). Rusiya ilə NATO üzvü Türkiyənin mümkün toqquşması ən əvvəl bu iki bölgədəki proseslər fonunda təhlil edilməkdədir.

**ABŞ-ın nüfuzlu “The Washington Times” nəşri özünün son sayında bu mövzuya toxunaraq yazır:** “Rusiya və Türkiyə arasında mübarizə təkcə Suriya səmasında getmir, həm də Qafqaza keçib”. Jurnalist Qay Teylorun məqaləsi bu fikirlə başlayır. Onun sözlərinə görə, son aylar Moskva Ermənistanda hərbi mövcudluğunu gücləndirməkdədir: “Ötən ilin dekabrında Rusiya Ermənistanla hərbi-hava hücumundan birgə müdafiə barədə anlaşma bağlayıb. Bundan sonra Moskva İrəvan yaxınlığındakı (Erebuni -red.) Rusiya hərbi bazasında ən azı, dörd yeni ”Miq-29" və çoxlu sayda digər hərbi texnika vahidləri yerləşdirib".

"Rusiya mətbuatının məlumatlarına görə, belə bir anlaşma bir neçə ay ərzində hazırlanıb. Ancaq "Miq-29" təyyarələrinin və yeni döyüş vertolyotlarının fevralın ortalarında Ermənistana göndərilməsi Putinin Türkiyəni və onun NATO üzrə müttəfiqlərini çəkindirmək üslubuna bənzəyir", - deyə müəllif qeyd edir.

Məqalədə daha sonra deyilir: "Beləcə, Ermənistan Rusiyanın fəal müttəfiqinə çevrilir, yoxsa Moskva Türkiyəni mühasirəyə almaq cəhdlərində sadəcə, ondan "peşka" ("piyada"-red.) qismində istifadə edib qorxudur?" Müəllif bu suala bir neçə Qərb analitikinin cavablarını almağa çalışıb.

"Ermənistanın Rusiya ilə sıx tarixi əlaqələrinin olması faktdır. Və indi - Türkiyə-Rusiya münasibətləri "ölümcül həddə" çatdığı məqamda Ermənistan bu konfrontasiya kontekstində "cəbhəyanı dövlət"ə çevrilib"- deyib Qlobal Energetika və Avrasiya Mərkəzinin baş elmi əməkdaşı, tanınmış siyasi təhlilçi Ariel Koen.

"Təhlükə var ki, Moskvanın az öncə atdığı addımlar Qafqazda etnik müharibəni qızışdırsın. Xüsusən də söhbət Azərbaycanla Ermənistanın Dağlıq Qarabağ uğrunda mübarizəsindən gedir. Görünür, Rusiya indi öz təsirini "üzə çıxarmaq" Ermənistandan tələb edir ki, Türkiyənin düz yaxınlığında öz hərbi mövcudluğunu genişləndirsin" - məqalədə vurğulanır.

"Əgər Ermənistan naz eləsə, Rusiyanın Qarabağda rıçaqları var ki, donmuş münaqişəni Azərbaycanın xeyrinə həll eləsin" - güman edir digər ekspert, "EurasiyaNet" nəşrinin şərhçisi Castin Berk: "Ermənistan Rusiyanın "peşkası" deyil. İrəvanda əksər liderlər ölkənin Rusiya-Türkiyə münaqişəsinə cəlb olunmasından ehtiyat edirlər. Ermənistanın bu regionda müttəfiqləri yoxdur. İrəvanın Kremli könüllü şəkildə müdafiə etməsi fikri kökündən yanlışdır. Bu ölkə sadəcə, Rusiyada asılıdır və vacib məsələlərdə ona "yox" deyə bilməz".

**Qəzetin yazdığına görə, başqa təhlilçilər hesab edirlər ki, Kreml Ermənistanı faktiki surətdə, satellit-dövlətə çevirib və Putin onu Türkiyə ilə regional hökmranlıq uğrunda mübarizədə istismar edəcək. Bu yerdə müəllif ABŞ Dövlət Departamentinin sabiq əməkdaşı və keçmiş səfir, hazırda PR-firmada çalışan Adam Erelinin az öncə “Forbes” jurnalındakı məqaləsini xatırladır.**

"Ermənistan - Putinin yeni satellit dövləti" adlı həmin məqalədə Ereli Rusiyanın işğalçı Ermənistanı sürətlə hərbiləşdirməsinə toxunaraq sual eləmişdi: "Nədən ABŞ Türkiyəyə münasibətdə Rusiyanın demək olar, aşkar təcavüzü qarşısında susqunluq göstərir?"

**Məqalədə NATO-nun mənzil-qərargahının adının çəkilməsini istəməyən əməkdaşının fikirlərinə də yer verilib.** "Bəzi narahatlıqlar şişirdilib. Əgər Rusiya təyyarələri Ermənistandan Türkiyə sərhədlərinə doğru uçuşlara başlasa, bu, əlbəttə ki, Türkiyə və NATO üçün açıq-aşkar problem olacaq. Ancaq hələlik bu, baş vermir. Çünki Ermənistan, hər halda, rusların hər ağlına gələn şeyə icazə vermir. Yəni ruslar Ermənistanda ağıllarına gələn hər şeyi edə bilmirlər" - iddia edib alyans rəsmisi.

❑ Siyasət şöbəsi

# Rəsmi Bakı Avropa İttifaqından istədiyini aldı

## Qurumun vitse-prezidenti Federika Mogerininin Qarabağ bəyanatına ilginc reaksiyalar



**"Məncə, Avropa İttifaqının (Aİ) Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyində prinsipial dəyişiklik və ya yenilik baş verməyib. Aİ əvvəllər də ümumi sözlərlə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirir və münaqişənin sülh yolu ilə həllini dəstəklədiyini bəyan edirdi". Politoloq Şahin Cəfərli bu fikirləri Avropa İttifaqının (Aİ) xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, qurumun vitse-prezidenti Federika Mogerininin son bəyanatını "Yeni Müsavat"a şərh edərkən söylədi.**

Qeyd edək ki, F.Mogerini Bakıda olarkən Azərbaycanın maraqlarına tam cavab verən mövqe sərgiləyib. "Avropa İttifaqı Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir. Aİ və ona üzv olan ölkələr Dağlıq Qarabağın müstəqilliyini qəbul etmir. Hesab edirik ki, status-kvo qəbuledilməzdir və münaqişəsinin sülh yolu ilə nizamlanması bizim üçün mühüm əhəmiyyət daşıyır" deyə, avropalı diplomat bildirib. Aİ rəsmisi qeyd edib ki, münaqişə hərb yolu ilə deyil, beynəlxalq normalar çərçivəsində siyasi yolla həll edilməlidir.

**Ş.Cəfərli hesab edir ki, Aİ, eləcə də ABŞ münaqişənin tezliklə həllini istəyir:** "Mən bu məsələdə onların səmimi olduğuna inanıram. Lakin münaqişə hansı şərtlərlə həll olunacaq? Bizim üçün önəmli olan budur. Qərb üçün isə bu məqam ikinci dərəcəlidir. Onlar hansı şərtlər daxilində olursa-olsun, Azərbaycan və Ermənistanın anlaşmasını və regionda dayanıqlı sülhün bərqərar olmasını, əməkdaşlığın, inteqrasiyanın başlamasını arzu edirlər. Lakin Azərbaycan hakimiyyəti ümumi deklarativ sözlər əvəzinə, Avropa İttifaqından daha konkret mövqe gözləyir. Məlum olduğu kimi, Azərbaycan Aİ-yə strateji tərəfdaşlıq haqqında müqavilə layihəsi təqdim edib. Böyük ehtimalla, rəsmi Bakı həmin sənəddə Azərbaycanın ərazi bütövlüyünə konkret dəstək ifadə olunmasını və işğal altındakı ərazilərin azad olunması zərurətinin vurğulanmasını istəyir. Aİ assosiasiya sazişi gündəmdə olarkən Azərbaycanın bu tələbinə müsbət yanaşmayıb və Gürcüstan, Ukrayna və Moldovadakı separatizmlə bağlı birmənalı mövqe ortaya qoyarkən, Azərbaycanın analoji probleminə münasibətdə fərqli davranıb. İndiki mərhələdə Aİ-nin Azərbaycan tərəfinin bu gözləntisinə nə dərəcədə cavab verəcəyi tərəflər arasında qarşılıqlı siyasi əlaqələrin bundan sonrakı inkişafına mühüm təsir göstərəcək". **Bununla belə, politoloq Mogerininin açıqlamalarının hələlik qaneedici olduğunu düşünmür:** "Eyni zamanda onu da qeyd etmək lazımdır ki, Qərb Dağlıq Qarabağ məsələsində Rusiyanın dominant rolundan hələlik narahat deyil. Həmsədrlik institutu daxilində formal baxımdan hər üç vasitəçi eyni hüquqlara malikdir, reallıqda isə mərkəzi rol Rusiyaya məxsusdur. Qərb gözləyir ki, Rusiya hər iki ölkə, xüsusən də Ermənistan üzərindəki təsir gücündən istifadə edərək münaqişənin həllinə nail olsun. Atəşkəsin qorunmasının əsas təminatçısı qismində də Rusiyanı görürlər. Yəni məsuliyyəti bir növ, Rusiyanın boynuna qoyub, bu işdən yaxalarını kənara çəkirlər. Dağlıq Qarabağ münaqişəsi Qərb üçün prioritet mövzu deyil. Hazırkı "nə hərb, nə sülh" vəziyyəti onları çox da narahat etmir və atəşkəs rejiminə ümumən riayət olunmasından məmnundurlar. Ermənistanın mövqelərinin zəifləyib-zəifləmədiyi məsələsinə gəldikdə isə regiondakı son proseslər Ermənistanın Rusiya üçün önəmini daha da artırıb. Ermənistanın Türkiyə ilə həmsərhəd ölkə olması və Yaxın Şərqin bir addımlığında yerləşməsi Moskva üçün cəlbedicidir. Təsadüfi deyil ki, son aylar Moskva bu ölkədəki hərbi bazalarını gücləndirir. İki gün əvvəl isə Putin Ermənistanın Rusiya-Belarus dövlətlərarası maliyyə-sənaye qrupu olan "Müdafiə Sistemləri" ASC-yə qəbul olunmasını məqbul sayıb. Bütün bunlar Moskvanın öz müttəfiqinin maraqları əleyhinə addım atması ehtimalını ciddi şəkildə azaldan faktorlardır. Qərb indiki vəziyyətdə Rusiyaya bu məsələdə təzyiq etməyəcək".

**Ş.Cəfərliyə görə, şübhəsiz ki, Qərbin bölgəmizə diqqəti tədricən artacaq, lakin bu diqqətdən nəsibini alacaq ölkə ilk növbədə Gürcüstan olacaq:** "Çünki Gürcüstan avroatlantik məkanın bir hissəsinə çevrilmək üçün ciddi addımlar atır və Avropa İttifaqı yaxın vaxtlarda bu ölkə vətəndaşları üçün vizasız rejim tətbiq edəcək. Gürcüstanın NATO-ya inteqrasiya prosesi bu gün yavaş getsə də, əsas məqam odur ki, qonşu ölkənin NATO-ya tamhüquqlu üzvlüyü üçün siyasi qərar çoxdan verilib. Bu da çox da uzaq olmayan gələcəkdə Gürcüstanın avroatlantik məkana qovuşacağının təminatıdır. Yəni yaxın perspektivdə Gürcüstanın Rusiyanın pəncəsindən qoparılması daha prioritet məsələ olacaq, nəinki Qarabağ münaqişəsi. Lakin yuxarıda da qeyd etdiyim kimi, Rusiya mövqeyini dəyişərsə və bu problemi həll etməyə qərar verərsə, Qarabağ düyünü çözülə bilər. Qəlibləşmiş ifadə ilə desək, bu məsələnin açarı Moskvanın cibindədir".

**Qeyd edək ki, rəsmi Bakı da Aİ təmsilçisinin mövqeyindən razı qalıb.XİN rəsmisi Hikmət Hacıyev:** "Bizim tərəfimizdən də təqdir olunur ki, Avropa İttifaqının (Aİ) xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi və Aİ-nin vitse-prezidenti Federika Mogerini Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyini dəstəklədiyinə dair mövqeyini aydın şəkildə ifadə etdi. Qarşıdan gələn dövr ərzində Avropa İttifaqı-Azərbaycan əməkdaşlığının gündəliyində duran ən vacib məsələlərdən biri Aİ ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair saziş layihəsidir. Bu səfər əsnasında saziş layihəsi də müzakirə obyekti oldu. Belə ki, hələ "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində keçirilən Riqa sammitində Azərbaycan tərəfdən Avropa İttifaqı komissiyasına strateji tərəfdaşlığa dair saziş layihəsi təqdim olunmuşdu. Bu saziş layihəsi də mahiyyət etibarilə əməkdaşlığımızın bütün aspektlərini, o cümlədən siyasi-humanitar istiqamətləri özündə ehtiva edən çərçivədir". **XİN rəsmisi əlavə etdi ki, artıq Azərbaycanın Avropa İttifaqının 8 dövləti ilə strateji səviyyədə münasibətləri var:** "Enerji sahəsində də Azərbaycan və Avropa İttifaqının strateji tərəfdaşlığı var. Ona görə də əməkdaşlığın bütün aspektlərinin qaldırılması hər iki tərəfin marağına xidmət edə biləcək yeni bir tərəfdaşlıq müstəvisidir. Xanım Mogerini tərəfindən mətbuata açıqlamada bir maraqlı məqam da qeyd edildi ki, Azərbaycan Avropa İttifaqının Cənubi Qafqaz regionunda həm də ən vacib iqtisadi və ticarət tərəfdaşıdır. Ümumiyyətlə, Avropa İttifaqı-Azərbaycan əlaqələrinə baxdıqda, bu, həqiqətən də qarşılıqlı-faydalı əməkdaşlıqdır. Bütün Avropa İttifaqının qonşularına və ətrafına baxdıqda, Azərbaycanla əməkdaşlıq həm Avropa İttifaqının, həm də Azərbaycanın maraqlarına cavab verir. Azərbaycan potensial miqrasiya göndərən dövlət deyil, Avropadan bəzi qonşular kimi maliyyə yardımı istəmir. Əksinə, Azərbaycan potensial miqrasiyanın, o cümlədən narkotik ticarətinin, terrorçuların qarşısının alınmasında çox mühüm rola malikdir. Bizim istədiyimiz yalnız bərabərhüquqlu, qarşılıqlı əməkdaşlıqdır. Sonuncu mövqe də müsbət bir addımdır".

❑ Cavid TURAN

# Parlament hansı terror təşkilatları haqqında qanun qəbul edib?

## Ərəstun Oruclu: "Azərbaycan kimi ölkələrin hansısa təşkilatı rəsmi olaraq terror təşkilatı kimi tanıması risklər yaradır"

**Səudiyyə Ərəbistanı, Küveyt, Bəhreyn, Qətər, BƏƏ və Omanın daxil olduğu Körfəz Əməkdaşlıq Şurası Livanın "Hizbullah" hərbi qruplaşmasını terror təşkilatı elan edib. Qurum "Hizbullah"ı, onun idarəçilərini, bu qruplaşmanın yardımçısı olan silahlı təşkilatları terrorçular siyahısına salıb. Körfəz ölkələrinin bu addımı Türkiyəni PKK-nın Suriya qolu sayılan PYD-nin dünya tərəfindən terror təşkilatı kimi tanıtmaq üçün cəhdlərini artırmağa sövq edib. Türkiyə ilk növbədə özünə müttəfiq və dost saydığı ölkələrin, həmçinin dünya güclərinin PYD-ni terrorçu təşkilat kimi tanımasına nail olmağa çalışır.**



Keçmiş MTN zabiti Ərəstun Oruclu bildirdi ki, Türkiyənin PYD-nin terror təşkilatı kimi tanınmasında israr eləməsi anlaşılandır. Çünki hazırda PYD faktiki olaraq başsız qalmış Suriyada-Türkiyənin sərhədində kürd dövləti yaratmaq hədəfinə yaxınlaşıb. Ankarada bunu yaxşı anlayırlar ki, PYD bu istəyinə nail olarsa, bu, Türkiyənin daxilinə də təsir göstərəcək: "Nəzərə alsaq ki, PYD özbaşına deyil, onu silahlandıranlar, dəstəkləyənlər var, Türkiyənin narahatlığının əsassız olmadığı ortaya çıxar. ABŞ-ın Rusiyadakı səfiri PYD ilə bağlı açıqlamasında dedi ki, Türkiyənin PYD-ni terrorçu kimi tanıtmaq cəhdinə və ona qarşı hərbi əməliyyatlar keçirməsinə qarşıdır. Səfir isə rəsmi Vaşinqtonun dili ilə danışır. Türkiyəni narahat edən və hərəkətə gətirən bu kimi mövqelərdir. Hər hansı təşkilatın beynəlxalq səviyyədə terrorçu təşkilat kimi tanınması üçün çox ciddi səylər və uyğun beynəlxalq situasiya olmalıdır. Hazırkı situasiyada Türkiyənin PYD-ni beynəlxalq səviyyədə terror təşkilatı kimi tanıtmaq istəyinin uğur qazanacağı inandırıcı görünmür. ABŞ-ın, Rusiyanın, İranın mövqeyi bu işə ciddi maneə yaradır".

**Ekspert vurğuladı ki, müxtəlif ölkələrdə terror aktları təşkil etməkdə ad çıxarmış terror təşkilatlarını Azərbaycan kimi kiçik ölkələrin rəsmi olaraq terror təşkilatı kimi tanıması həmin ölkələr üçün risklər də yaradır. Azərbaycan hakimiyyətinin bir sıra terror təşkilatları ilə bağlı parlament səviyyəsində rəsmi sənəd qəbul etməməsinin bu amillə bağlı olduğu istisna deyil:** "Şübhəsiz, terror təhlükəsi hər bir dövlət üçün həmişə var. Heç bir dövlət bundan yüz faiz sığortalanmayıb. Ancaq hər halda, ortaya rəsmi sənəd şəklində mövqe qoyan ölkələrin hədəf seçilməsi riski daha çoxdur".

**Milli Məclisin hansı terror təşkilatlarını rəsmi olaraq terror təşkilatı kimi tanıyan sənəd qəbul etməsinə gəlincə, Ə.Oruclu dedi ki, parlamentin bu barədə sənəd qəbul etməsi faktına rast gəlməyib. Konkret olaraq PKK-nı terror təşkilatı kimi tanıyan qanunun qəbul edilməsi məsələsi isə hər dəfə gündəmə gətiriləndə hakimiyyət təmsilçiləri, parlament rəhbərliyi bəyan edib ki, onsuz da PKK Azərbaycan tərəfindən terrorçu təşkilat olaraq tanındığına görə xüsusi qanunun qəbuluna ehtiyac yoxdur:** "Azərbaycan tərəfi müxtəlif səviyyələrdə dəfələrlə bildirib ki, Türkiyənin problemi onun problemi, Türkiyənin sevinci onun sevincidir. Türkiyə PKK-nı terror təşkilatı kimi tanıdığına görə Azərbaycan da onu birmənalı şəkildə terror təşkilatı hesab edir. Bu, müzakirə edilməyəcək bir mövzudur. Azərbaycanın Türkiyənin problemlərini öz problemləri kimi qəbul etməsi həmişə olub və bundan sonra da olacaq. PKK Türkiyə ərazisində fəaliyyət göstərən bir təşkilat olduğuna görə bu təşkilatın Azərbaycan tərəfindən terror təşkilatı kimi rəsmi sənəd şəklində tanınmasına ehtiyac yoxdur. Terrorla mübarizədə Azərbaycan həmişə Türkiyənin yanındadır".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 51 (6372) 4 mart 2016

**Hazırda sosial şəbəkələrdə, saytlarda ən çox müzakirə edilən məsələlərdən biri də İlhamə Quliyevanın miras qalmaqalı ilə bağlıdır. Müğənninin zamanında vəsiyyətnamə tərtib etməməsi ölümündən sonra qohumları, yaxınları arasında vərəsəlik davasına səbəb olub.**

# Məşhurlar vəsiyyətnamə yazıbmı - ilginc cavablar...

Qeyd edək ki, Azərbaycanda vərəsəlik davaları tez-tez rast gələnən problemlərdən biridir. Məhkəmə proseslərini yaxından araşdıranda məlum olur ki, bu problem nəinki varlı, imkanlı, həmçinin aztəminatlı, yoxsul ailələrdə də yaşanır. Bəzən adi, o qədər də maddi dəyəri olmayan əşya üstündə qohumlar arasında mübahisə düşür, iş məhkəməyə qədər gedib çıxır.

Dünya praktikasına nəzər yetirəndə məlum olur ki, inkişaf etmiş ölkələrin əksəriyyətində orta, aşağı təbəqənin nümayəndələri də hələ sağlıqlarında vəsiyyətnamə yazır, vərəsələri müəyyənləşdirirlər. Bir çoxları isə ölümlərindən sonra bədən orqanlarını bağışladıqları barədə vəsiyyət edir. Bu, artıq dünyada adi bir proses kimi qəbul edilir. Qardaş Türkiyədə statistik məlumata görə, hər 1 milyondan 3 nəfəri orqanlarını bağışlayır. Azərbaycanda isə tanınmışlardan millət vəkili Qənirə Paşayeva bu cür addım ataraq ölümündən sonra orqanlarını bağışladığı barədə vəsiyyət yazıb.

Bir sözlə, insanların sağlıqlarında vəsiyyətnamə tərtib etməsi özlərindən sonra bir çox problemləri aradan qaldırmış olur. Bəs görəsən, tanınmışlardan kimlər vəsiyyətnamə yazıb?

**Tanınmış müğənni-bəstəkar Niyaməddin Musayev hələ vəsiyyət barəsində düşünmədiyini dedi:** "Hələ tezdir vəsiyyətnaməyə. Vaxtı gələndə edərik".

**Müğənni, tanınmış cazmen Cavan Zeynallı da hələ ki vəsiyyət barəsində düşünmür. Bu barədə onun həyat yoldaşı Röya xanım dedi. Röya xanım ilk öncə İlhamə Quliyevanın miras qalmaqalına münasibət bildirdi:** "Bu barədə çoxlu sayda şayiələr danışırlar. Onun bir oğlu var. Hər ailədə ailə başçısı dünyadan köçəndə onun mirası övladına qalır. Bu əvvəldən belə olub. İndi insanlar haqq dünyasına çatmamış onun mirası haqda fikirləşirlər. Bu, düzgün deyil. İlhamə Quliyeva milyoner deyil ki. Onun oğlu var, mirası da ona qalacaq.

O ki qaldı Cavan müəllimin vəsiyyət etməsinə, hələ ki bu barədə düşünməmişik... Allah bütün sənətkarlarımıza cansağlığı versin, çalışıram ki, Cavan müəllim çox yaşasın".

**MMP sədri Hafiz Hacıyev isə vəsiyyət etməyə mal-mülkü olmadığını dedi:** "Vəsiyyətnaməni o adamlar yazır ki, onların var-dövləti olur və onun bölüşdürülməsi uğrunda övladları arasında mübarizə gedir. Çox təəssüf ki, bizlər ac-yalavac yaşayan insanlarıq. Bizim elə bir varımız yoxdur ki, onu vəsiyyət edək. Öləndə övladlarımız bizi basdırsalar böyük işdir. Qoy o adamlar vəsiyyətnamənin qayğısına qalsın ki, onların milyonları var. Biz bu gündən sabaha ümidi olmayan, çörək tapmayan insanlarıq. Mən kirayədə yaşayan insanam. Belə olan təqdirdə mənim nə vəsiyyətim ola bilər?"

**Tanınmış jurnalist Seymur Verdizadə isə "övladlarımı başıma toplayıb, onlara vəsiyyət etsəm, evdə aləm bir-birinə dəyər" deyə bildirdi:**

"Adətən yaşlı insanlar vəsiyyət edirlər. Bu da ilk növbədə onunla bağlıdır ki, cavan olanda heç kim ölüm haqda fikirləşmir. Amma ölüm haqdır, onun bizi harada yaxalayacağını heç kim deyə bilməz. Buna görə də insanın hətta cavan yaşda da vəsiyyət etməyində qeyri-adi heç nə yoxdur.

Hələlik mən övladlarıma ancaq yaxşı oxumağı və ləyaqətli ömür sürməyi vəsiyyət edə bilərəm. Çünki onlara vəsiyyət edəcəyim malım-mülküm, daşınmaz əmlakım yoxdur. Nahaq deməyiblər ki, "yaxşı oğul neynir ata malını"... Ata malı heç pis oğula da lazım deyil. Bir valideyn kimi övladlarıma verə biləcəyim ən dəyərli miras yaxşı təhsildir.

Bundan sonra qalanını əldə etmək çətin deyil.

Sualınıza gəlincə, bu məsələyə Azərbaycan reallığından çıxış edərək cavab verməK lazımdır.

Əgər bu gün övladlarımı başıma toplayıb, onlara vəsiyyət etsəm, evdə aləm bir-birinə dəyər. Onlar hələ yeniyetmədirlər, belə ağır yükü qaldırmağa hazır deyillər. Bəlkə də müəyyən dövrdən sonra onlarla bu barədə açıq danışmaq olar".

**Seymur Verdizadə bədən orqanlarının vəsiyyət edilməsi məsələsinə də toxunub:**

"İnsanların sağlığında bədən orqanlarını kiməsə bağışlamasına yaxşı baxıram. Əgər dünyadan köçəndə hansısa orqanım başqa bir insana ömür verəcəksə, mən onu bu gündən həmin adama bağışlayıram".

❑ Xalidə GƏRAY



**Niyaməddin Musayev:** "Hələ tezdir"



**Hafiz Hacıyev:** "Kirayədə yaşayıram, mənim nə vəsiyyətim ola bilər?"



**Seymur Verdizadə:** "Vəsiyyət etsəm, evdə aləm bir-birinə dəyər"

# Yoluxucu xəstələr işdən çıxarılacaq-ekspertlərin şərhi

## Əmək Hüquqları Müdafiəsi Liqasının rəhbəri və hüquqşünaslar nazirliyin qərarına nə dedilər?

**Səhiyyə Nazirliyi "Dövlət sanitariya-epidemioloji nəzarətinin həyata keçirilməsi ilə əlaqədar istifadə edilən sənədlərin tərtibi və tətbiqi Qaydaları"nı təsdiq edib. Yeni qaydalara görə, parazitar xəstəlikləri yaymaq təhlükəsi yaradan şəxslər işdən kənarlaşdırılacaq. Bu qaydalar Dövlət Sanitariya Nəzarəti Xidməti tərəfindən qeyri-sahibkarlıq subyektlərində aparılan yoxlamalar zamanı qüvvədə olan sanitariya normalarının və qaydalarının, gigiyena normativlərinin tələblərinin pozulması hallarında məhdudlaşdırıcı tədbirlərin tərtib və tətbiq edilməsi qaydasını müəyyən edir.**

Qeyri-sahibkarlıq subyektlərinə münasibətdə normativ hüquqi aktların pozulması hallarında xidmət tərəfindən təşkilatların, ayrı-ayrı sahələrin, otaqların, binaların, qurğuların, avadanlığın, nəqliyyat vasitələrinin istismarını, eləcə də ərzaq xammalının və qida məhsullarının saxlanmasını, daşınmasını, içməli su mənbələrindən, təsərrüfat və ya sağlamlaşdırma məqsədləri üçün su mənbələrindən istifadə olunmasını zəruri tədbirlər görülənədək və normativ hüquqi aktların mövcud pozuntuları aradan qaldırılanadək dayandırılır, normativ hüquqi aktlara əməl etmək mümkün olmadıqda işə xitam verilir, yoluxucu və parazitar xəstəlikləri yaymaq təhlükəsi yaradan şəxsləri, habelə sanitariya normalarını və qaydalarını, gigiyena normativlərini müntəzəm yerinə yetirməyən şəxslər işdən kənarlaşdırılır. Şəxs məcburi göstərişləri yerinə yetirməsi və məhdudlaşdırıcı tədbirlərin tətbiqinə əsas olmuş pozuntuları aradan qaldırması barədə xidmətə yazılı məlumat təqdim etməlidir. Belə məlumatın təqdim edildiyi gündən 3 iş günü ərzində xidmət pozuntuların aradan qaldırılıb-qaldırılmadığını yoxlayır. Yoxlama nəticəsində məcburi göstərişlərin yerinə yetirilmədiyi və məhdudlaşdırıcı tədbirlərin tətbiqinə əsas olmuş pozuntuların aradan qaldırılmadığı müəyyən olunduqda bu haqda hər bir pozuntu ayrıca təsvir olunmaqla müvafiq akt tərtib olunur, şəxsə yazılı məlumat verilməklə qərar qüvvədə qalır. Yoxlama nəticəsində pozuntuların aradan qaldırıldığı müəyyən olunduqda xidmət məhdudlaşdırıcı tədbirlərin ləğvinə yazılı razılıq verir. Məhdudlaşdırıcı tədbirlərin tətbiqinə əsas olmuş pozuntuların aradan qaldırılması barədə xidmətə yazılı məlumatın təqdim edildiyi gündən 5 iş günü ərzində xidmət tərəfindən yazılı məlumat verilmədikdə qərar qüvvədən düşmüş hesab edilir.



Maraqlıdır, Səhiyyə Nazirliyinin qəbul etdiyi bu qərar insan haqları, Əmək Məcəlləsinə zidd deyilmi?

**Əmək Hüquqları Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədov Səhiyyə Nazirliyinin belə bir qərar verməK səlahiyyətinin olmadığını dedi:** "Bu, əmək qabiliyyətini müvəqqəti itirmə halı kimi gedə bilər. Amma Səhiyyə Nazirliyinin bu qərarı Əmək Məcəlləsinə zidd olmamalıdır. Əgər işçi qrip, vərəm və digər xəstəliklərə tutulubsa, o zaman bu şəxs ətrafdakılar üçün də təhlükə yaradır. Təbii ki, bu şəxs müalicə olunmalıdır. Amma bizdə əksinə olur. SPİD, şəkərli diabet kimi bir neçə xəstəlik var ki, bu xəstəliklərdən əziyyət çəkən insanların işləməsi Əmək Məcəlləsinə görə qanunla qadağan olunub. İnfeksion xəstəliklərə gəlincə isə Səhiyyə Nazirliyi belə bir qərar verməK səlahiyyətində deyil. Çünki əmək məsələlərini onlar tənzimləmir. Əgər insan toksid maddə, narkotik qəbul edərsə, həmin şəxs işdən kənarlaşdırılır və ona ödəniş edilmir. Əgər insan yoluxucu xəstəliyə tutulubsa, müvəqqəti işdən kənarlaşdırılır və buna görə xüsusi bülleten verilməlidir. Bu insan ambulator müalicədən keçməlidir. İtirdiyi günlərə görə də ona Dövlət Sosial Müdafiə fondundan və ya işə götürənin əmək haqqı fondundan pul ödənilməlidir. Bu da Əmək Məcəlləsi ilə tənzimlənir. Burada da nazirliyin velosiped kəşf etməsinə ehtiyac yoxdur".

**Hüquqşünas Müzəffər Baxış isə bu qərarda insan haqlarını tapdalayan bir durum olmadığını dedi:** "Qriplə bağlı kənarlaşdırma normal haldır. Digər şəxslərin qripə yoluxmasının qarşısını almaq üçün bu dövlət tədbiridir. Konstitusiyaya görə başqalarının hüquqları başlayanda sənin hüquqların kəsilir. Yəni əgər şəxs xəstədirsə və bu xəstəlik nəticəsində əmək kollektivində digər şəxslər bu xəstəliyə yoluxa bilərsə, o zaman belə bir qaydanın tətbiq edilməsi digər şəxslərin hüquq və azadlıqlarının təmini üçün həyata keçirilən bir tədbirdir. Bunu da normal bir tədbir hesab edirəm. Bu şəxslərin əmək müqavilələrinə xitam verilə bilməz. Sadəcə olaraq, işdən kənarlaşdırıla bilər. İşdən kənarlaşdırma institutu isə tamamilə başqa institutdur. Bizim qanunvericilikdə işçi sərxoş vəziyyətdə işə gələndə də işə götürən onu işdən kənarlaşdırılmalıdır. Çünki işçinin sərxoş vəziyyətdə olması müəyyən təhlükələr törədə bilər. Bu nöqteyi-nəzərdən onu işdən kənarlaşdırırlar. Bu cür hallarda da işçinin işdən kənarlaşdırılması insan hüquqlarının həyata keçirilməsinə heç bir mənfi təsir göstərmir".

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 51 (6372) 4 mart 2016

## Azərbaycandakı multimilyonerlərin sayı müzakirələr yaradıb

### Qadir İbrahimli: "Ölkəmizdə real multimilyonerlər hesabatda göstərildiyindən daha çoxdur"



**Londonda fəaliyyət göstərən Knight Frank LLC beynəlxalq şirkəti dünya multimilyonerləri ilə bağlı hesabatını yayıb. 2015-ci il ərzində dünyada 30 milyon dollar və daha çox kapitala malik olan varlıların ümumi sərvəti 20.8 trilyon dollardan 19.3 trilyon dollara qədər azalıb.**

Hesabatda göstərilir ki, dünyada multimilyonerlərin sayı 5500 nəfər azalıb. Buna baxmayaraq, 2005-ci illə müqayisədə belə şəxslərin sayı 61% yüksəlib. 2015-ci ilin sonlarına olan məlumata görə, dünyada şəxsi sərvətinin həcmi 30 milyon dollar və daha çox olan 187.5 min adam var.

Şirkətin hesabatında diqqətçəkən məqamlardan biri Azərbaycanla bağlıdır. Siyahıda yalnız Monqolustandan geri qalan ölkəmiz 444 faiz artımla ikinci sırada qərarlaşıb. İlk üçlüyü Vyetnam qapayır. Sənəddə deyilir ki, 2005-ci ildə Azərbaycanda sərvəti 30 milyon dollar və daha çox olan şəxslərin sayı təqribən 1000 nəfər olub, 2015-ci ildə isə belələrinin sayı 5600 nəfərə çatıb.

Hesabatdakı Azərbaycan multimilyonerlərinin sayı ciddi müzakirə mövzusuna çevrilib. Ölkəmizdə bu qədər varlı şəxsin olmaması ilə bağlı müxtəlif fikirlər səslənir. Şirkətin hesabatının qərəzli olduğu deyilir. Amma bununla belə, hesabata tərəf çıxıb, onun doğruluğuna inanlar da az deyil. Sosial şəbəkələr və mətbuatın hazırda əsas müzakirə mövzularından biri budur. İqtisadi böhranın yaşandığı ölkədə bu qədər multimilyonerin olması qıcıq oyadıb. Milyonçuların sayının sürətlə artması müəmmalıdır.

**İqtisadçı ekspert Qadir İbrahimli hesab edir ki, Azərbaycanda multimilyonerlərin sayı hesabatdakından daha çoxdur:** "Hansı standartlarla belə qənaətə gəlinməsi barədə heç nə deyə bilmərəm. Amma mənə elə gəlir ki, real multimilyonerlər hesabatda göstərildiyindən daha çoxdur. Hətta milyarderlər də var. Ölkəmizdəki multimilyonerlər və milyarderlər leqal deyillər. Onların əksəriyyəti məmurlar, yaxud məmurların ailə şirkətlərinin sahibləridir. Azərbaycanda iri oliqarx deyəndə, ölkəmizdəki oliqarxlardan söhbət gedir. Yalnız Hacı İbrahim Nehrəmli və Hafiz Məmmədovun adını çəkə bilərik. Bu şəxslər həqiqətən böyük kapital sahibidirlər. Qalan hallarda digər multimilyonerlərin adlarını bilmirik. Hesabatda bildiyim qədəri ilə leqal gəlirlər əsas götürülür. Azərbaycanda isə leqal gəliri olan, vergi ödəyən multimilyoner yoxdur. Bu hesabatı qeyri-ciddi saymıram. Amma hesab edirəm ki, Azərbaycanla bağlı simvolik rəqəmlər göstərilib. 10 nəfər 100 milyondan çox sərvəti olan şəxs göstərilir. Amma bu rəqəm ölkəmizdə qat-qat çoxdur. 100-ə yaxın 100 milyondan çox maddi vəsaiti olan oliqarx var. Milyardlarla vəsaitləri olan şəxslər də var. Bunları ölkəmizdə hər kəs tanıyır. Amma onlar milyarder sayılmırlar. Çünki vergi ödəyicisi deyillər. Avropada milyarder deyəndə, ilk növbədə onların büdcəyə ödədikləri vergilər əsas götürülür. Amma Azərbaycanda bunun əksidir. Onların ailə şirkətləri də büdcəyə simvolik məbləğlər ödəyirlər. Bu faktdır ki, Azərbaycanın büdcə gəlirinin 70%-i neft sektorunun hesabınadır. Qeyd olunan multimilyonerlər milyonçu sayıla bilməzlər. Çünki vergi ödəmirlər, mənimsəmə yolu ilə bu qədər maddi vəsait toplayırlar".

**Q.İbrahimli dövlətin bu tipli şəxslərin qarşısını alma yollarından da söz açdı:** "Kütləvi həbslər yolu ilə problemin həllinin tərəfdarı deyiləm. Ölkəmizdə liberal iqtisadi islahatlar həyata keçirilməlidir. Bu yolla həmin şəxslərin vəsaitlərinin iqtisadiyyata yatırılmasına imkan yaranar. Onlar qeyri-leqallıqdan leqal fəaliyyətə bu yolla keçə bilərlər. Hesabatda ölkəmiz əleyhinə elə bir işarə yoxdur. Hansısa yollarla hesablanan hesabatdır. Heç bir qərəz yoxdur. Sadəcə, ölkəmizdəki multimilyoner və milyarderlərin digər ölkələrdəkindən fərqləri leqal olmamalarıdır".

❑ Cavanşir ABBASLI



# Yaşıl dollar səməniyə və keçələ qarşı

## Manat Novruz əhval-ruhiyyəsini də korlaya bilər...

**Yeni il ərəfəsində insanların bayram əhvalını korlayan dollar bu dəfə də əhalini Novruz ərəfəsində kədərə boğa bilər. Belə ki, Mərkəzi Bankın rəhbəri Elman Rüstəmovun son çıxışı bunu deməyə əsas verir. E. Rüstəmov bildirib ki, Azərbaycanda həyata keçirilən "üzən məzənnə" siyasəti özünü doğruldur və manatın dayanıqlığı təmin edilməyənədək "üzən məzənnə" rejimində olacaq".**

Mərkəzi Bankın sədri qeyd edib ki, indiki şəraitdə qlobal iqtisadiyyatda vəziyyəti nəzərə alsaq, bu düzgün qərardır. "Ötən il dekabrın 21-də "üzən məzənnə" siyasətinə keçidlə bağlı qəbul edilən qərar Azərbaycanın strateji maraqlarına uyğundur. Mərkəzi Bankın əsas vəzifəsi manatın məzənnəsinin ifrat dəyişkənliyinin qarşısını almaqdır. Hazırda manat öz dayanıqlığını artırmaqdadır". Bütün bunları AMB sədri Elman Rüstəmov deyib.

Lakin ekspertlər manatın dayanıqlığının getdikcə zəiflədiyi qənaətindədirlər.

**Elman Rüstəmovun çıxışına münasibət bildirən iqtisadçı ekspert Azər Mehtiyev "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, indiki halda Elman Rüstəmovun nə deməyindən asılı olmayaraq, reallıq göz qabağındadır və manata inam zəifləyir:** "Son zamanlar hökumət tərəfindən banklara və manata inamın artırılması istiqamətində addımlar atılır, lakin təəssüf ki, bu addımlar kompleks xarakter daşımır. Dollar satışı ilə bağlı həyata keçirilən hərraclar insanları inandırmağa imkan vermir. İlkin mərhələdə, yanvar ayında keçirilən hərraclarda dollara tələbat azalmışdı. Ancaq artıq fevral ayından görürük ki, dollara tələbat artıb və hərraclarda Mərkəzi Bank dollara olan tələbatı tam ödəyə bilmir. Çünki ölkə iqtisadiyyatının durumu manatın sabitliyini qoruyub saxlamaq iqtidarında deyil. Dünya bazarında neftin qiymətinin Azərbaycan üçün arzuolunan səviyyədə və ölkəyə valyuta daxilolmalarını təmin etmək iqtidarında deyil. Bu baxımdan biz yaxın müddətdə manatın yenidən ucuzlaşmasını gözləyə bilərik".

**İqtisadçı Natiq Cəfərli də "Yeni Müsavat"a açıqlamasında manatın inzibati qaydada tənzimləndiyini və "üzən məzənnə" rejiminin tətbiq olunmadığını bildirdi:** "Elman Rüstəmov israrla deyir ki, Azərbaycan manatı "üzən məzənnə" rejimindədir. Ancaq Azərbaycanda "üzən məzənnə" rejimi yoxdur və heç zaman da olmayıb. Bunun olması ehtimalı da çox aşağıdır. Çünki "üzən məzənnə"yə keçmək üçün



### Qubad İbadoğlu: "Mərkəzi Bankın sabitləşmədən danışması üçün əsaslar yaranmayıb"

iqtisadi institutlar olmalıdır. Bu, qiymətli kağızlar, valyuta birjasının da daimi fəaliyyət göstərməsidir, ölkəyə dollar axınının olmasıdır. Bir çox əsaslar var ki, onlar olmadan manat "üzən məzənnə" rejiminə keçə bilməz. Azərbaycanda bu gün manatın məzənnəsi inzibati qaydada tənzimlənir və Mərkəzi Bankın siyasətinə uyğun olaraq müəyyənləşdirilir. Bu siyasətdə də iqtisadi əsaslandırmadan söhbət gedə bilməz".

**Ekspertin fikrincə, Elman Rüstəmovun çıxışında diqqət çəkən məqam ondan ibarət idi ki, manatın məzənnəsinin kəskin oynamasının qarşısını almaq üçün Mərkəzi Bank addımlar atacaq:** "Manatın məzənnəsinin yaxın gələcəkdə möhkəmlənməsinin mümkün olmadığını nəzərə alsaq, bu o deməkdir ki, Mərkəzi Bank kəskin devalvasiya əvəzinə gündəlik, həftəlik olaraq dolların məzənnəsinin artmasına üstünlük verəcək. AMB-nin siyasətində bu xəttin olması ehtimalı yüksəkdir. Çünki kəskin devalvasiya Azərbaycan iqtisadiyyatına çox böyük zərbə vurdu, bank sektorunu çökdürdü, ticarət dövriyyəsi zəiflədi. Əmlak bazarında, avtomobil bazarında durğunluq yarandı. Devalvasiya həm də iş yerlərinin qapadılmasına gətirib çıxardı. Görünür ki, hökumət bu məsələdən müəyyən dərs çıxartmaq istəyir və gələcəkdə məzənnənin kəskin 20, 30 və ya 40 faiz ucuzlaşmasındansa, gündəlik məzənnə dəyişikliyinə keçmək yolunu seçib".

**Natiq Cəfərlinin sözlərinə görə, çox güman ki, biz manatın məzənnəsinin gündəlik olaraq dəyərdən düşməsi prosesini izləyə biləcəyik:** "Son zamanlar dollara tələbat da artır. Mərkəzi Bankın açıqlamalarında da var idi ki, son hərracda banklar 64 milyon dollara tələb edib, Mərkəzi Bank isə bu tələbin 30 milyonunu ödəyib. Bu faktların özü də sübut edir ki, Azərbaycanda "üzən məzənnə" yoxdur. "Üzən məzənnə" rejiminə görə, həmin gün manat kəskin ucuzlaşmalı idi, ancaq heç bir dəyişiklik olmadı. Əgər gələcəkdə çox ciddi problemlər yaşanacaqsa, neft qiymətinin yenidən ucuzlaması gündəmə gələcəksə, indiki 30-35 dollarlıq səviyyədən 25-30 dollarlıq səviyyəyə enəcəksə, o zaman Mərkəzi Bank və hökumət daha kəskin addımlar atmaq məcburiyyətində qala bilər. Ancaq hələlik manatın yumşaq şəkildə dəyərdən düşməsi kursu seçilib. Çox güman yaxın günlərdə dolların rəsmi məzənnəsi 1.60- ı keçəcək. Hazırda proses ona doğru gedir".

**İqtisadçı ekspert Qubad İbadoğlu isə "Yeni Müsavat"a danışarkən bildirdi ki, əvvəl sabit qiyməti sonra isə hərracı təşkil etmək azad bazar sisteminə ziddir:** "Mərkəzi Bankın üzən məzənnə siyasəti adı ilə belə yanaşması yalnışdır. Bununla əvvəlki yanaşma arasında fundamental fərq yoxdur, hər iki variantda Mərkəzi Bank manatın məzənnəsini təyin edir. İkinci devalvasiyadan qabaq həmin gün təyin edirdi, hazırda isə məzənnə bir və ya bir neçə gün əvvəldən müəyyən edilir. Odur ki, bunu üzən məzənnə siyasətinə keçid adı ilə təqdim etmək düzgün deyil, manat hələ də tənzimlənən məzənnə siyasəti idarə olunur. Bu da valyuta ehtiyatlarımızın xərclənməsini tələb edir. Manatın orta və uzunmüddətli dövrdə qayanıqlığını yalnız bazar iştirakçıları təmin edə bilər. İndiki şərtləri nəzərə alsaq Mərkəzi Bankın sabitləşmədən danışması üçün əsaslar yaranmayıb. İdxalın azalmasına yönələn valyutaya tələbat proqnozu isə birtərəfli qiymətləndirmədir, aldadıcı xarakter daşıya bilər. İstənilən halda burda yalnız gömrük statistikası əsasında hesablama aparmaq düzgün deyil, çünki güzgü metodologiyası ilə aparılan müstəqil araşdırmalar göstərir ki, rəsmi açıqlanan idxalla faktiki idxal arasında ciddi kənarlaşmalar var. Digər tərəfdən, idxaldan əlavə ixracdan gələn gəlirlər, şirkətlərin və bankların xairici borc öhdəlikləri və sair amillər də nəzərə alınmalıdır ki, düzgün valyuta balansı formalaşsın. Bunun da ən yaxşı yolu tədiyyə balansını gizlətmək deyil, operativ olaraq açıqlamaq və izləməkdən ibarətdir.

Hazırkı şəraitdə Mərkəzi Bank manatın məzənnəsini yumşaq şəkildə ucuzlaşdırma siyasətini davam etdirəcək, amma yenə də manatın başının üzərindən təhlükə sovuşmayıb. Onun dayanıqlığı milli iqtisadiyyatın durumundan asılıdır. Təəssüf ki, milli iqtisadiyyatın durumu da getdikcə pisləşir. Odur ki, manatın dayanıqlığından danışmağa dəymir".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 51 (6372) 4 mart 2016

# Elman Rüstəmov üç səlahiyyətini itirir

## Mərkəzi Bankdan tənzimləmə və nəzarət, eləcə də lisenziyalaşdırma səlahiyyətləri alınır

**Azərbaycan Mərkəzi Bankının hüquqi statusu dəyişdirilir. Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, eləcə də Hüquqi siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanununda dəyişikliklər edilməsi barədə" qanun layihəsinin müzakirəsi zamanı məlum olub.**



Dəyişikliyə əsasən, qanunun 2.1-ci maddədə "dövlət orqanıdır" sözləri "publik hüquqi şəxsdir" sözləri ilə əvəz edilir.

Bundan başqa, 2.2-ci maddənin birinci cümləsində "kapitalına" sözü "fonduna" sözü ilə, üçüncü cümləsində isə "kapitalının" sözü "fondunun" sözü ilə əvəz edilir. Beləliklə, qanunda bu maddə "Mərkəzi Bankı müstəqil balansa, nizamnamə fonduna və digər əmlaka malikdir. Mərkəzi Bank balansında olan əmlaka Mülki Məcəlləyə uyğun olaraq sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, Mərkəzi Bankın razılığı olmadan fondunun və digər əmlakının özgəninkiləşdirilməsinə yol verilmir" kimi qeyd olunacaq.

Dəyişikliklərdən biri 5.0.7-ci maddənin ləğv edilməsi ilə bağlıdır. Bu dəyişikliklə, Mərkəzi Bankın bank fəaliyyətini lisenziyalaşdırması və tənzimləməsi, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirməsi funksiyası əlindən alınır.

Bundan başqa, 9.3-cü maddədə "pul, valyuta və bank nəzarəti sahələrində" sözləri "pul və valyuta siyasəti sahələrində" sözləri ilə əvəz edilir.

Həmçinin Mərkəzi Bankın İdarə Heyətinin səlahiyyətlərinin bir qismi də əlindən alınır. Belə ki, dəyişikliklərdə 22.0.9 - 22.0.12-ci maddələrin ləğvi nəzərdə tutulur. Bununla da Mərkəzi Bankın İdarə Heyətinin kredit təşkilatlarına bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaların verilməsi və ləğv edilməsi barədə qərar qəbul edə, kredit təşkilatları üçün iqtisadi tənzimləmə (prudensial) normativləri müəyyən edə, "Banklar haqqında" qanun ilə müəyyən olunmuş hallarda banklara müvəqqəti inzibatçının təyin edilməsi və səlahiyyətinə xitam verilməsi haqqında qərar qəbul edə, Azərbaycanın bank sistemində xarici kapitalın iştirak limitini müəyyənləşdirə bilməyəcək.

Dəyişikliklər qəbul olunsa, Mərkəzi Bank ölkənin bank sisteminin sabit işini təmin etmək, bank kreditorlarının və əmanətçilərin maraqlarını qorumaq məqsədilə bank fəaliyyəti üzərində lisenziyalaşdırma, tənzimləmə və nəzarət funksiyalarını itirəcək. Üstəlik, dəyişikliklərlə Mərkəzi Bankdan tənzimləmə və nəzarət, eləcə də lisenziyalaşdırma səlahiyyətləri alınır.

Bu qanunun 49-cu maddəsinin də yeni redaksiyada verilməsi təklif olunur. Belə ki, bu maddəyə əsasən, bank sisteminin sabitliyinin təmin edilməsi, bank kreditorlarının və əmanətçilərinin maraqlarının qorunması məqsədilə Mərkəzi Bank özünün müəyyən etdiyi qayda və şərtlər daxilində banklara kreditlər, o cümlədən subordinasiya kreditləri verə bilərdisə, bundan sonra bankların ödəmə qabiliyyətinin qısamüddətli pozulması və likvidlik çatışmazlığı hallarında maliyyə bazarlarına nəzarət orqanı 6 aydan artıq olmayan müddətə kreditlərin verilməsi üçün Mərkəzi Banka müraciət edə bilər. Maliyyə bazarlarına nəzarət orqanının müraciəti əsasında Mərkəzi Bank 2 bank günündən gec olmayaraq kreditlərin verilib-verilməməsi barədə müvafiq qərar qəbul etməlidir.

**Sənəd müzakirələrdən sonra plenar iclasa tövsiyə olunub.**

# Rüfət Aslanlı antikollektorları tənqid edib

## "Onlar insanlara banklara olan borclarını qaytarmamağın yollarını öyrədirlər"

**"İctimaiyyətdə bank sektorunda baş verən proseslərlə bağlı gərginlik dalğası hiss olunur. Mərkəzi Bank bu gərginliyin aradan qaldırılması üçün müəyyən addımlar atırdı və indi də atır. Ən ciddi gərginlik xarici valyutada götürülən kreditlərlə bağlıdır. Əgər problem sistem xarakterlidirsə, məsələyə sistematik yanaşmaq lazımdır".**

APA xəbər verir ki, bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, eləcə də Hüquqi siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması üzrə İşçi Qrupunun rəhbəri Rüfət Aslanlı deyib.

R. Aslanlı bildirib ki, maliyyə sistemi özü də yuxarıda qeyd edilən problemdən əziyyət çəkir. "Mərkəzi Bankın sədri Elman Rüstəmov da bildirib ki, maliyyə sektoru 9,3 milyard manatlıq öhdəliyini yerinə yetirməlidir. Söhbət banklarda yerləşdirilən əmanətlərdən gedir. Maliyyə sektoru, yeni banklar öhdəliyini icra etmək üçün verdiyi kreditləri yığmalıdır. Yaranmış vəziyyət qapalı dairəni xatırladır. Mən bura (iclasa - red.) gələrkən çox ciddi bir halla rastlaşdım. Deməli, Puşkin küçəsində üzərində "Antikollektor" yazısı olan bir ofis açılıb. Maraqlandım, dedilər ki, son zamanlar bir neçə şirkət yaranıb və onlar insanlara banklara olan borclarını qaytarmamağın yollarını öyrədirlər. Mən qayıdanda o şirkətlə məşğul olacağam... Mən belə başa düşürəm ki, biz oturduğumuz qayığı deşirik. Yaxşı, tutalım ki, borcunuzu qaytarmadınız. Fərz edək ki, sizin heç bankda əmanətiniz də yoxdur. Bəs bank kartı ilə maaş alan insanlar, pensiya alan yüzlərlə, minlərlə insan pulunu necə alacaq?! Bank deyəcək ki, pulum yoxdur, vəssalam! Çünki verdiyim kreditləri antikollektorlar sayəsində geri ala bilmirəm. İnsanlar anlamalıdırlar ki, borc götürülübsə, qaytarılmalıdır. Problemin müxtəlif həlli yolları var. Tutalım, bir insan 500 manat kredit götürüb və oğluna toy edib. Hazırda isə bu pulu ödəməyə imkanı yoxdur. Bank anlayır ki, onsuz bu pul qayıtmayacaq. Çıxış yolu nədir? Kreditlər klassifikasiya olunmalıdır: bir qismi restrukturizasiya olunmalıdır, bir qismi silinməlidir, bir qisminin faizlərinə yenidən baxılmalıdır və sair. Bankların aktivlərinin diaqnostikası aparılmalıdır", - deyə o qeyd edib.

# Sahibkarların yoxlanılması üçün yeni qurum yaradıla bilər

**"Ümumiyyətlə, sahibkarlıq sahəsində planlı yoxlamaların aparılmasının əleyhinəyəm. Hesab edirəm ki, bu cür yoxlamalar səmərəsizdir. Məsələ ilə bağlı biz öz təkliflərimizi hazırlamışıq".**

"Report" xəbər verir ki, bunu Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasının sui-istifadə hallarının artmasına gətirib çıxaracağı ilə bağlı məsələyə münasibət bildirərkən deyib.

"Necə ola bilər ki, əvvəlcədən hansı müəssisənin yoxlanılması bəlli olsun. Komitə bu nəzarət sisteminin bazar vasitəsilə təkmilləşdirilməsini təklif edir. Belə ki, bu sahə ilə məşğul olan dövlət qurumları istehlak bazarında olan məhsulları alıb, qeydiyyata alınmış laboratoriyada yoxlamalı və onun nəticəsinə uyğun olaraq yoxlama aparmalıdır. Bu, ölkəyə idxal olunan məhsullara da şamil edilməlidir. Fikrimcə, müəssisəni narahat etmək yox, bazar vasitəsilə keyfiyyətsiz məhsulları aşkar etmək lazımdır", - deyə komitə sədri vurğulayıb.

**R.Həsənov əlavə edib ki, Azərbaycanda istehsal olunan məhsulların yoxlanılması ilə bağlı bu sahəyə aid bütün orqanlar birgə çalışır:** "Dövlət başçısının tapşırığına əsasən, sahibkarlıq obyektlərinin yoxlanılması sahəsində dəyişikliklər aparılmalı, xarici ölkələrin bu sahədə olan təcrübəsi öyrənilməli və tətbiq edilməlidir. Həmçinin müvafiq islahatların aparılması ilə bağlı dövlət başçısı koməkçi təyin edib. Təbii ki, islahatlar olacaq. Təkliflər hazırlanır və yaxın zamanda təqdim ediləcək. Ümumiyyətlə, bu qərar tamamilə düzgündür, bu sahə təkmilləşdirilməli, hətta lazım olarsa, bu işlə məşğul olan yeni qurum yaradılmalıdır".

# Azərbaycanda niyə biznes ombudsmanı yoxdur?

## Oqtay Haqverdiyev: "Bu funksiyasını yerinə yetirən qurumlar var"

**Son zamanlar Azərbaycanda baş verən iqtisadi və siyasi hadisələr fonunda sahibkarların incidilməsi və onların işlərinə süni maneə yaradanların olduğu ictimaiyyətdə geniş müzakirələrə səbəb oldu. Elə bu müzakirələr əsnasında Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq, yerli və mərkəzi icra hakimiyyəti orqanlarının yanında Apelyasiya Şuralarının yaradılmasına başlanılıb.**

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov şura ilə bağlı açıqlamasında bildirib ki, burada məqsəd sahibkarlar, eləcə də hüquqi və fiziki şəxslər tərəfindən mərkəzi icra hakimiyyəti, yaxud da yerli icra hakimiyyəti orqanlarının verdiyi qərarlardan, onların hərəkətsizliyindən daxil olan şikayətləri araşdırıb qərar qəbul etməkdir.

Dünyada bir sıra ölkələrdə, o cümlədən şimal qonşumuz olan Rusiyada ayrıca olaraq sahibkarların hüquqlarını qorumaq, onlara qarşı yaradılan maneələri araşdırıb müvafiq addımların atılması üçün biznes ombudsmanı fəaliyyət göstərir.

Bəs Azərbaycanda nə üçün belə bir qurum yaradılmır?



**Məsələ ilə bağlı musavat.com-da danışan Nazirlər Kabinetinin sabiq şöbə müdiri, iqtisad elmləri doktoru Oqtay Haqverdiyev bildirib ki, əslində Azərbaycanda ombudsman funksiyasını yerinə yetirən qurumlar var:** "Azərbaycanda adı fərqli olsa da sahibkarların işinə nəzarət funksiyasını yerinə yetirən qurumlar hər zaman olub. Xarici ölkələrlə müqayisə etsək, bir çox sahələrdə bu kimi halları görmüş olarıq. Məsələn, Rusiyada uşaq ombudsmanı var, ancaq bizdə belə adlanmır. Bizdə bunun adı komitə gedir. Yəni funksiya baxımından demək olar ki, eynidir. Azərbaycanda ombudsman demək olar ki, əsasən insan haqlarının müdafiəsi istiqamətində fəaliyyət göstərir. Xaricdə olan ixtisaslaşdırılmış ombudsmanlar isə konkret olaraq öz sahəsi üzrə məşğul olur. Onlar sahələri üzrə bütün şikayətlərə baxırlar və açıq şəkildə harada hansı neqativ halın baş verməsini açıqlayırlar. Bunun funksiyası ondan ibarətdir. Azərbaycanda da qeyd etdiyim kimi, ad fərqli olsa da, funksiya etibarı ilə eynilik təşkil edən qurumlar yox deyil. Məsələn, götürək Hesablama Palatasını. Hesablama Palatasının funksiyası büdcə vəsaitlərinin necə və hara istifadə olunmasını araşdırıb üzə çıxarmaqdır. Sonra bu qurum qeydlərini ya Milli Məclisə, ölkə başçısına, yaxud da hüquq-mühafizə orqanlarına verir ki, bu da əslində ombudsmanın funksiyası ilə eynidir. Sadəcə olaraq, yaxşı olardı ki, Azərbaycanda konkret sahələr üzrə işlər bir qədər dərindən aparılsın".

❑ **Əli RAİS**

# Bağça müdirəsi ittihamları cavablandırdı

**Eşitmə Qabiliyyəti Pozulmuş Uşaqların Respublika İxtisaslaşdırılmış körpələr evi-uşaq bağçasında tərbiyəçi Zərqələm Alıyeva ilə müdirə Sədaqət Cəfərova arasında qovğa yaşandığı haqda xəbər vermişdik. "Tərbiyəçi əlil körpələrin bağçasındakı yeyintilərdən baş prokurora şikayət etdi" sərlövhəli yazıda Z.Alıyevanın fikirləri yer almışdı. Tərbiyəçi bağçanın müdirəsini körpələrin ərzaqlarını mənimsəməkdə, sokuna su qatılmasında və digər qanunsuzluqlarda ittiham etmişdi.**

Redaksiyamıza əlaqə saxlayan S.Cəfərova bildirib ki, Z.Alıyevanın dedikləri həqiqəti əks etdirmir: "Bağçada 40 körpə var. Həmin körpələrin payını yemək heç kimə xeyir verməz. Zərqələm Aliyeva dəfələrlə bu məsələ ilə bağlı hüquq-mühafizə orqanlarına müraciət edib. Onun çoxlu borcları var, düşünür ki, bu qaydada şikayətlər etməklə problemlərini həll edə bilər. Bağçada tərbiyəçi vəzifəsində çalışanların vəzifəsi 200 manatdır. Zərqələm Alıyevanın durumunu nəzərə alaraq ona 2 ştat vermişik ki, 400 manat əmək haqqı ala bilsin. Bundan başqa yenə də ailə vəziyyətini nəzərə alıb ona maddi köməklik edilməsi üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etmişik. Amma o, yenə də elavə köməklik olunmasını istəyib. Ona bağçada yaşayış üçün yer verilməsini tələb edib. Bağçanın qarşısındakı otaqda məskunlaşmış qaçqın ailəsini oradan çıxarmaq istəyib, dava-dalaş salıb".

**Bağça müdirəsi deyib ki, tərbiyəçinin müraciətlərində göstərdiklərinin növbəti dəfə araşdırılmasına da etiraz etmirlər:** "Həmin körpələri mən doğma övladlarım kimi istəyirəm. Dövlətin verdiyi ərzaqlar müəyyən olunmuş normalar çərçivəsində körpələrə verilir. Ərzaqlar köhnə, yararsız, yeməklər keyfiyyətsiz ola bilməz. Çünki buna daim nəzarət olunur. Zərqələm Alıyevanın dedikləri həqiqət deyil".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 51 (6372) 4 mart 2016




# Əyyami-Fatimə (s.ə) - özünəqayıdış üçün vücudi fürsət

**Cümə söhbətləri**

**Bismillləhir-Rahmənir-Rahim! İmamlar (ə) anası Həzrət Fatiməyi-Zəhranın (s.ə) şəhadəti günlərini yaşayırıq. Bu baxımdan, əziz millətimiz, əziz iman əhli diqqət etməlidir ki, bu Əyyamı - "Fatimə (s.ə) günləri"ni yaşadaq, Əyyamın ehtiramını saxlayaq.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Niyə Əyyam?

Həmd olsun Uca Allaha ki, digər Əhli-Beyt (ə) sevər toplumlarda olduğu kimi, bizim məmləkətdə də artıq neçə illərdir Əyyami-Fatimə (s.ə) yaşadılır. Sovet dövründə unutdurulan, unutdurulmağa cəhd edilən bir fenomen - "Fatimə (s.ə) günləri" bərpa olunmaqdadır. Ümumiyyətlə, xalqımızın, toplumumuzun bu sahədə bilgiləndirilməsinə çox böyük ehtiyac var. Əyyamın yaşadılmasına dair məclislər, əzadarlıqların təşkili - fövqəladə dərəcədə mühümdür. "Əyyami-Fatimə (s.ə)" - "Fatimə (s.ə) günləri" deməkdir. Bu dönəm, təqribən 20 günü əhatə edir. Hicri-qəməri təqvimi ilə cəmadüəl-əvvəl ayının 13-dən cəmadüəs-sani ayının 3-dək davam edir. Bu zaman fasiləsinin mövcudluğu - Həzrət Fatimənin (s.ə) məzlumiyyətinin ən bariz nümunələrindəndir. Belə ki, Xanımın (s.ə) şəhadəti tarixinin 2 ehtimalı olması ilə əlaqədardır. Görün ümmət nə halda idi ki, Peyğəmbərin (s) gözünün işığının, İmamlar (ə) anasının müsibətli vəfatı ilə bağlı dəqiq tarixi saxlamayıb, yaşatmayıb. Nəticədə ümmət 2 tarixə istinad edir.

Bu səbəbdən də 2 tarix arasındakı günlər "Fatimə (s.ə) günləri" kimi qeyd edilir. Bu 20 gündə ümmət qəflətdən ayılmalı, gündəlik qaçaqaçlarını durdurmalı, özünə qayıtmalı, öz vücudi sualları barədə, haradan gəldiyi, harada olduğu, haraya gedəcəyi barədə qayğılanmalıdır. Bəlkə də Əyyamın 20 gün çəkməsinin hikmətlərindən biri də məhz bununla bağlıdır ki, insanın təfəkkürü, özünəqayıdışı üçün Məhərrəm-Səfər dönəmindən, Ramazan ayından əlavə, daha bir zaman fasiləsinin mövcudluğunun zərurəti vardır. Elə isə bu Əyyamı layiqincə yaşadaq, əziz anamız Həzrət Zəhranın (s.ə) müsibətini anaraq, daxilimizdə olan mənfiliklərdən can qurtarmağa çalışaq.

## Peyğəmbərimizin (s) narahatlığı

Əziz İslam Peyğəmbərinin (s) dünyaya vida demə tarixi səhnələrini hər kəs yaxşı bilir. Səfər ayının 28-də əziz Peyğəmbərimiz (s) öz missiyasını, risalətini, sonuncu Peyğəmbər (s) kimi üzərinə düşən İlahi məsuliyyətini yerinə yetirir və dünyaya vida edir. O Peyğəmbərdir (s) ki, Məkkədə bütün cahiliyyətin, xurafatların içərisində insanlıq, dirilik, oyanış, tövhid, təkallahlıq, ali əxlaqlar və bütün bu kimi məsələləri bəşəriyyət üçün Rəbbi tərəfindən sonuncu Peyğəmbər (s) olaraq, Xətəmül-ənbiya olaraq təqdim və təbliğ edir. Sonra Mədinə dövrünü yaşayır. Ən qısa dönəmdə insanlar bu mübarək mənəviyyat ocağına toplanırlar. Bu gün 1 milyard 500 milyon nəfərə çatan müsəlman ümməti, besətin (Həzrət Muhəmmədin (s) peyğəmbərlik missiyasının) başlanğıcında yalnız 3 mübarək şəxsiyyətdən: Rəsulallahın (s) özündən, İmam Əlidən (ə) və Həzrət Xədicədən (s.ə) ibarət idisə, sonradan onlarla, yüzlərlə sayılmağa başladısa, Mədinə dövründə artıq minlərə, onminlərə, yüzminlərə çevrildi. Və İsalmın dünyaya yayılması məhz Mədinədən başladı.

Bir gün o kədərli gün yetişir, əziz Rəsuli-Əkrəm (s) dünyaya vida etməli olur. Dünyaya vida edərkən Peyğəmbəri-Əkrəmin (s) ciddi narahatçılığı olur. Onun vəfatından sonra onun gətirdiyi sonuncu İlahi mesaj, sonuncu məktəb, bəşəriyyət üçün Qiyamətədək sonuncu olacaq İlahi təlim təhlükə qarşısında olur. İnsanlar əməli olaraq bu mübarək təlimi yaşadacaqlarmı? Belə bir narahatlıqla Peyğəmbər (s) dünyadan köçür.

Əziz Peyğəmbərin (s) vəfatından sonra ilk qəlizliklər, ilk mürəkkəbliklər meydana çıxır. Belə demək olarsa, Peyğəmbərin (s) gətirdiyi İlahi yaşayış tərzini öz mahiyyətindən kənarlaşdırmaq cəhdləri başlayır. Mübarək inancın, "Hər şey Allahın razılığı üçün" paradiqması üzərində olan dindən, insanın yaşayışının yanında paralel mövcud olacaq bir din fenomeninə transformasiya olunma təhlükəsi yaranır. Yəni, insanın bütün həyatı İslamın daxilində deyil, insanın həyatının yanında paralel olacaq bir İslam dini düzəltmək cəhdləri meydana çıxır. Bunu öncədən görən Rəsulallah (s), ümmətə dəfələrlə xəbərdarlıq edir, vəsiyyətlərini çatdırır. Həzrət Əli ibn Əbutalibin (ə) vilayətindən, rəhbərliyindən yapışmağın zəruriliyini və vacibliyini dönə-dönə vurğulayır.

## Vilayət institutunun müdafiəçisi

Xanım Fatimeyi-Zəhra (s.ə) kimdir? Peyğəmbərin (s) vəfatından sonra ilk günlərdən etibarən İlahi imamətin və vilayətin müdafiəçisi, ardıcılı, öz rəftarı, əməli, bütöv həyatı ilə insanlara nümunə olan bir şəxsiyyətdir. O dönəmdə bütün gözlər Peyğəmbərin (s) evində idi. Xanım (s.ə) tam mənada İslamın imamət, vilayət anlayışını müdafiə edir. Üzərində olan məsuliyyəti son anadək icra edir, sona qədər öz vəzifəsini daşıyır. Ora qədər bu vəzifəni daşıyır ki, Əmirəlmömininin (ə) icazəsi və məsləhət bildiyi nöqtələr var idi. Həzrət Zəhra (s.ə) - bütövlükdə İlahi vilayət institutunun mübarək müdafiəçisi kimi çıxış edir.

Bu, müsəlman toplumu üçün bir müsibətdir ki, Anasının (s.ə) şəhadətini 2 tarixdə qeyd edir. Bəzi mənbələrə görə, Peyğəmbərin (s) vəfatından yetmiş beş gün sonra, bəzi mənbələrə görə doxsan beş gün sonra Xanım (s.ə) şəhadətə çatır. Bu, söz olaraq rahat deyilir, sətirlər olaraq rahat ifadə olunur. Peyğəmbərin (s) əziz qızı, dünya və axirət xanımlarının seyyidəsi olan bir şəxsin, şəninə Quran ayələri nazil olan bir şəxsin, sevilməsi Allah tərəfindən vacib buyurulan bir şəxsin, razılığı - Allahın razılığı olan, qəzəbi - Allahın qəzəbi ola bilən şəxsin şəhadətindən gedir söhbət. Bu şəhadətin 2 tarixdə qeyd edilməsi asan səslənsə də, bu məsələnin dərki fövqəladə dərəcədə çətindir. Əziz Peyğəmbərin (s) gəldiyi bir toplumun halı və vəziyyətə nə yerə çatır ki, Xanım (s.ə) Peyğəmbərdən (s) sonra bir rəvayətə görə yetmiş beş gün, digər rəvayətə görə isə doxsan beş gün yaşayır. Hər bir səmimi müsəlmanın həyatında Xanım Fatimeyi-Zəhranın (s.ə) həyatını və vəfatını mütaliə etdiyi an - ən ağrılı anlardan biridir. Hüzn və kədər yaşanmalı bir məsələdir...

Qeyd etdik ki, Əyyami-Fatimə (ə) - bu iki tarixin arasında olan iyirmi günü yaşatmaqdır. Bu Əyyamı yaşatmaq - hər bir gerçək möminin vəzifəsidir. Allahdan bizlərə bu Əyyamda tövbə ruhiyyəsinə malik olmağı, Xanımı (s.ə) anmaq ləyaqətinə malik olmağı, Əhli-Beyti (ə) daha da dərindən tanımağı, bu Əyyamdan dərslər götürməyi nəsib etməsini diləyirik.

## "Allah sənə salam deyir, ey Allahın Sevimlisi..."

**Xanımın (s.ə) şəhadətinə yaxın anları olduqca nisgilli, qəmlidir. Həzrət Əmirəlmöminin Əli (ə) Xanım Fatimeyi Zəhranın (s.ə) şəhadəti haqqında buyurur:** "Fatimə (s.ə) şəhadətin son anlarında ətrafa baxaraq buyurdu: "Salam olsun sizə, ey mələklər və əmin Cəbrayıl (ə)!". Daha sonra mənə tərəf boylandı və buyurdu: "Əmioğlu, Cəbrayıl (ə) mənə salam verərək, ərz etdi: "Allah sənə salam deyir, ey Allahın Sevimlisi və Peyğəmbərin (s) qəlbinin meyvəsi! Bu gün sən İlahi mələkutda və vəd olunmuş Cənnətdə qarşılanacaqsan". Daha sonra üzünü yana çevirdi və başqa bir qrup mələyə salam verərək, dedi: "Əmioğlu, and olsun ki, bu da Mikayıldır (ə). O da mənə Cəbrayılın (ə) dediyi sözləri dedi və onun verdiyi müjdələri gətirdi". Daha sonra Xanım Fatimə (s.ə) yenə digər bir qrupa salam verdi və dedi: "Əmioğlu, and olsun ki, bu həqiqətdir. Bu gələn atamın mənə vəsf etdiyi Həzrət Əzraildir (ə). Salam olsun sənə, ey insanların ruhunu alan! Mənim ruhumu almaqda tələs və məni incitmə!". Mən eşitdim ki, Xanım Fatimə (s.ə) buyurur: "Allahım, atəşə tərəf deyil, Sənə tərəf gəlirəm"".

## Bərəkət və nuraniyyət - İlahi vilayətə bağlantıdadır

Hər bir insan üçün bu, böyük səadətdir ki, sevdiyi, əziz, doğma bildiyi şəxsi gedib ziyarət etmək imkanı var. Lakin, Əhli-Beyti (ə) sevən üçün bundan böyük müsibət ola bilməz ki, əziz Anamızın (s.ə) qəbrinin yeri bilinmir. Həzrət Zəhranın (s.ə) qəbri gizlədilib, dəfni gizli keçirilib. O vaxtın bəlli tarixi ağır şəraiti və ümumiyyətlə, bəşəriyyətə çatdırış üçün Həzrət Zəhranın (s.ə) qəbrinin dəqiq yeri bilinmir, İmamlarımız (ə) tərəfindən gizli saxlanılır.

Həzrət Peyğəmbərin (s) qızı Xanım Fatimeyi-Zəhra (s.ə) hansısa epizodik hadisənin, haşiyəvi mövzunun fədaisi olmayıb. İlahi vilayətin, İlahi imamətin ardıcılı, mübarizi və müdafiəçisi olub. Günümüz üçün də bu məsələ çox önəmlidir. Xanımın (s.ə) həyatına nəzərə salanda, əsas dərs götürülməli məsələ budur ki, İslam - vilayət, İmamət nuruna bağlantısı olan zaman gerçək İslam olur, gerçək din olur. Günümüzdə də İslamı bir din olaraq bu həqiqətdən ayırmaq istəyirlər. İslamı İlahi vilayət nurundan ayırmaq istəyirlər. Zəmanə Sahibinə (ə.f) bağlantıdan ayırmaq istəyirlər. Niyə narahat olurlar? Çox sadə məsələdir. Əgər insanın İlahi vilayətə və imamətə bağlantısı olmasa, onun Allahın nəsib etdiyi və insana əta etdiyi xüsusi rübubiyyətdən, xüsusi vücudi təminetmədən bəhrələnməsi mümkün deyil. O namaz, o oruc, o ibadətlər ki, orada Zəmanə Sahibinə (ə.f) bağlantı yoxdur, orada İlahi vilayət nuruna bağlantı yoxdur - orada bərəkət və nuraniyyət olmaz.

Xanım Zəhra (s.ə) bunun qorunmasının yolunda öz canını belə fəda etməyə hazır olur. Ona görə də, bunlar hansısa mifoloji məsələlər deyil, gündəlik həyatımıza aid ola məsələlərdir. Bu Əyyamın gündəlik həyatımıza real təsiri olmalıdır.

## "Qızım ona görə Fatimə adlanıb ki..."

Həzrət Zəhranı (s.ə) tanımaq üçün, onun barəsində bir neçə hədisə müraciət edək.

**Allahın Peyğəmbəri (s) buyurub:** "Qızım ona görə Fatimə adlanıb ki, Allah Təala onu və onu sevənləri oddan (Cəhənnəmdən) uzaq edib".

**İmam Sadiqdən (ə) soruşdular ki, Həzrət Fatiməni (s.ə) nə üçün lZəhra» (parlaq) adlandırıblar? Buyurdu:** "Çünki o mehrabda dayananda onun nuru səma əhlinə, ulduzların yerdə olanlar üçün saçması kimi saçırdı".

**İmam Sadiqdən (ə) nəql edirlər:** "Fatimənin (s.ə) Allah yanında doqquz adı var: Fatimə, Siddiqə, Mübarəkə, Tahirə, Zəkiyyə, Rəziyyə, Mərziyyə, Mühəddəsə, Zəhra".

**Allahın Peyğəmbəri (s) buyurub:** "Fatimə - mənim bədənimin bir parçasıdır. Onu sevindirən - məni sevindirib və onu qəmləndirən - məni qəmləndirib. Fatimə mənim üçün ən əziz şəxsdir".

**Rəsuli-Əkrəm (s) yenə buyurub:** "Həqiqətən, Fatimə - mənim bədənimin bir parçasıdır. O, mənim gözümün nuru və qəlbimin meyvəsidir. Onu qəmləndirən - məni də qəmləndirir və onu şad edən - məni də şad edir. O, mənim Əhli-Beytimdən mənə qovuşan ilk şəxsdir".

**Peyğəmbəri-Əkrəm (s) buyurub:** "Qızım Fatimə dünyanın - yaradılışın əvvəlindən sonuna kimi - bütün qadınlarının xanımıdır".

**Allahın Peyğəmbəri (s) Həzrət Fatiməyə (s.ə) buyurub:** "Allah sənin qəzəbinlə qəzəblənir və sənin sevincinlə şad olur".

## Həzrət Fatimənin (s.ə) dəyərli kəlamlarını eşidək və ibrət götürək

**Xanım (s.ə) buyurur:** "Biz, Peyğəmbərin (s) Əhli-Beyti (ə) - Allahla xəlqi arasında olan rabitəyik. Biz - Pərvərdigarın pak seçilmişləriyik. Biz - hüccət və yolgöstərən olacağıq. Biz - İlahi peyğəmbərlərin varisləriyik".

"Həzrət Muhəmməd (s) və Əli (ə) - bu ümmətin valideynləridir. Əgər (insanlar) o ikisinin ardılıcı olsalar, onlara dünya azmalarından və axirətin həmişəlik əzablarından nicat verilər. Behiştin zəngin nemətlərindən bəhrələndirərlər".

**İmam Əli (ə) haqqında buyurur: "O, İlahi və rəbbani rəhbərdir. Nur və aydınlıq təcəssümüdür. Bütün varlıqların və ariflərin diqqət mərkəzidir. Pak ailədən olan pak övladdır. Haqqı deyən və hidayətgardır. O, imamətin mehvəri və mərkəzidir".**

**"Hər kim ibadət və işlərini Allah üçün xaliscəsinə yerinə yetirərsə, Allah ən üstün bərəkətini ona təqdir edər".**

**"Bütün səadətlərin həqiqəti - həyatında və öləndən sonra Əlini (ə) sevməkdədir".**

**"Bizim Əhli-beyt (ə) davamçıları, həmçinin övliyalarımızı sevənlər və düşmənlərimizin düşməni olanlar və həmçinin o kəslər ki, qəlb və dili ilə bizə təslim olarlar - behiştin ən üstün insanları olarlar".**

**"Əgər biz Əhli-Beytin (ə) verdiyi əmrlərə əməl etsən və qadağan etdiyimizdən çəkinsən - sən bizim davamçılarınızdan olarsan, əks halda deyil".**

**"Dünyada üç şey sevimlidir: Quranı oxumaq, Peyğəmbərin (s) üzünə baxmaq, Allah yolunda yoxsullara yardım və infaq etmək".**

**"Həmişə ananın xidmətində ol, çünki behişt - anaların ayaqları altındadır. O nemətlərin nəticəsində behiştlik olarsan".**

**"Hər kim yemək yeyəndən sonra əllərini yumazsa və əlləri çirkili olarsa və narahatlığı yaranarsa, özündən başqasını məzəmmət etməsin".**

**"Həqiqətən Allah Təala bəndələrinin bütün günahlarını bağışlayar".**

**"Əvvəl gərək qonşuların və yaxınların çətinliklərinin və rifahının fikrində olmalı, sonra öz fikrində olmaq".**

**"O zaman ki, Qiyamət günü məhşur olaram, Peyğəmbər (s) ümmətinin xəta törədənlərinə şəfaət verərəm".**

**"Səadət əhli olmaz o dəstə ki, öz Peyğəmbərin (s) övladını qətl edər".**

**Allahım, bizlərə bu Əyyamı layiqli şəkildə yaşatmağı nəsib et.**

**Allahım, bizlərə İlahi vilayət nuruna bağlantı ruhiyyəsini nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 51 (6372) 4 mart 2016

# Tumlarda gizlənən yalançı kuponlar və xəstəliklər...

## "Günəbaxan tumu istehsalçıları sonu görünməyən xəstəlik şəbəkəsi də yarada bilər"





**Son günlər sosial şəbəkələrdə və mətbuatda "Beloçka" günəbaxan tumlarının insan orqanizmi üçün ciddi təhlükə mənbəyi olması ilə bağlı məlumatlar yayılır. Bildirilir ki, yüksək temperatur altında qurudulan "Beloçka" tumları qablaşdırıldıqdan sonra kiflənir. Nəticədə istifadə zamanı insanlarda müxtəlif xəstəliklər əmələ gəlir. Ümumiyyətlə, satışda olan günəbaxan tumlarının insan səhhəti üçün zərərli olması, onların qeyri-gigiyenik şəraitdə qablaşdırılması haqqında fikirlər tez-tez səsləndirilir.**

Bu gün mağazalarda müxtəlif adda və qiymətdə günəbaxan tumları satılır. Hətta bu tumların içərisinə hədiyyə kuponları da yerləşdirilir. Ancaq hədiyyə kampaniyasının müddəti bitsə də, üzərinə "hədiyyəli" yazılan tumlar satışdan yığışdırılmır. Həmçinin sonda həmin hədiyyəni kimin əldə etməsi bəlli olmur. Bu da istehlakçının aldadılmasıdır. Kuponlarda pulsuz telefon danışığı dəqiqələrindən tutmuş avtomobilə qədər uduşun olduğu deyilsə də, bu günədək heç kim günəbaxan tumlarından nə hansısa məişət avadanlığı, nə də avtomobil qazanmayıb.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov günəbaxan tumlarının hansı şəraitdə doldurulması barədə heç bir məlumatın olmadığını dedi:** "Əvvəla, ictimai yerdə, küçədə tum çırtlamaq mədəniyyətsizlikdir. Çox təəssüf ki, Azərbaycan xalqında bu var. Mən bu halı Türkiyədə də görmüşəm. Gürcüstanda, Rusiyada və digər xarici ölkələrdə mən tum çırtlayan görməmişəm. Keçmişdə də bu var idi. O vaxtlar günəbaxan tumları qablarda, stəkanlarla satılırdı. Fikrimcə, tum və saqqız kimi məmulatların satışına son qoyulmalıdır. İnsanların naməlum xəstəliklərə, mədə bağırsaq-xəstəliklərinə tutulmasında tumların böyük rolu var. Bu azmış kimi, hələ o günəbaxan tumlarına uduşlu kuponlar qoyub, insanları aldadırlar. Təəssüflər olsun ki, müvafiq qurumlar bu cür anormal halı pul qazanmaq xatirinə stimullaşdırır. Bir sözlə, Azərbaycanda pul qazanmaq xatirinə insanların sağlamlığına zərər vurulur. Bu, yolverilməzdir. "Azərlotoreya"nı buna görə ciddi tənqid edirik. Kuponlarla bağlı satışda da problemlər yaşanır. "Azərlotoreya"ya 7 nömrəli - həlledici kuponun qoyulmadığını demişəm və bu sahədə şəffaflıq yaradılmasını xahiş etmişəm. Lakin "Azərlotoreya" buna əhəmiyyət verməyərək əhalinin aldadılması üçün şəraiti genişləndirir. Azad İstehlakçılar Birliyinə məsələni araşdırmaq üçün də heç bir şəffaf mühit yaradılmayıb. Günəbaxan tumlarının istehsalında şəffaflıq yoxdursa, hər cür fəsad ola bilər. Hətta bunun istehsalçıları Azərbaycanda sonu görünməyən xəstəlik şəbəkəsi də yarada bilərlər. Bu müəyyən bir partiyası yoxlamadan keçməyən əcaib bir biznesdir. Tumların harada, necə doldurulduğu barədə heç bir məlumat yoxdur".

Günəbaxan tumlarının insan səhhəti üçün zərərlərinə gəlincə isə həkimlər tumların insanda ilk növbədə psixoloji asılılıq yaratdığını deyir. Yəni insan bu məşğuliyyətə başladıqda uzun müddət dayana bilmir. Qovrulma zamanı tumlarda olan faydalı qida maddələri parçalanaraq effektivliyini itirir. Biz də qovurulmuş tumlara üstünlük verdiyimizdən onların orqanizmə faydalılığı sual altında qalmış olur. Həmçinin səs telləri və ağ ciyərləri ilə problemləri olan insanlar günəbaxan tumlarından uzaq durmalıdırlar.

Ancaq normal vəziyyətdə istehsal edilən, qablaşdırılan günəbaxan tumları çox istifadə edilmədiyi halda insan səhhəti üçün faydalıdır. Belə ki, günəbaxan tumunun tərkibində mis, sink, dəmir və lif var. Bunlar qırmızı qan hüceyrələrinin çoxalmasını təmin edərək bədənə oksigen daşınmasına, immunitet sisteminin qorunmasına, qan şəkərinin və qanda xolesterinin tarazlığının gözlənilməsinə və qəbizliyin önlənməsinə dəstək olur. 30 qram günəbaxan tumu gündəlik E vitamini ehtiyacını qarşılamağa qadirdir. Mütəxəssislər gün ərzində E vitamini ehtiyacını qarşılayan insanların ürək xəstəliklərinə yaxalanmaq riskinin yarıbayarı azaldığını bildirirlər.

❑ **Günel MANAFLI**




## "Nar" Gəncədə yeni mağazasını təqdim etdi

### "Nar" qərb bölgəsində yeni konseptinə uyğun növbəti satış və xidmət mərkəzini açdı

**Atatürk prospekti 261 ünvanda açılmış yeni mərkəz Gəncə şəhəri və ətraf ərazilərdə yaşayan müştərilərin rahatlığı və onlara göstərilən xidmət səviyyəsinin daha da yüksəldilməsi məqsədini daşıyır.**

**Özünün müştəri yönümlülük və davamlı təkmilləşmə dəyərlərinə sadiq qalan "Nar" bu dəfə də istifadəçilərin istəklərinə yönəlik bir sıra addımlar atdı.**

**Açılış zamanı mobil operatorun genişləndirilmiş şəbəkəsi, ən sərfəli tarif və kampaniyaları barədə geniş məlumat verildi. Gəncəlilər qısa müddət ərzində 2 dəfə böyümüş şəbəkə sayəsində xidmət səviyyəsinin yaxşılaşdırılması, abunəçilərin tələblərinə cavab verən sərfəli qiymət və yüksək keyfiyyətli xidmət strategiyası haqqında məlumatlandırıldılar.**

**Hazırda ölkədə 4 "Nar" satış-xidmət mərkəzi və 25 "Nar dünyası" mağazası, eləcə də çoxlu sayda "Nar" diler dükanları fəaliyyət göstərir.**

**Mağazaların ünvanı və xidmətlər haqqında ətraflı məlumatı buradan öyrənə bilərsiniz: https://www.nar.az/pages/default/pageName=about-_us_nar_points/**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


bakcell

## "Mançester Yunayted Futbol Məktəbi"nə növbəti seçim başlanır

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti və Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) "Mançester Yunayted Futbol Məktəbi"nin istedadlar qruplarına qəbul prosesinin başlanmasını elan edir.**

**Seçimlər 2005, 2006, 2007-ci il təvəllüdlü uşaqlar arasında 15 mart 2016-cı il tarixində, saat 15:00-da, Bayıl Arena stadionunda keçiriləcək.**

**Bu seçim prosesi nəticəsində istedadlar qruplarında mövcud olan boş yerlərə uşaqlar cəlb olunacaq.**

**Seçimlərdə iştirak etmək üçün, http://manutd.az/muss/ keçidindən istifadə edərək qeydiyyatdan keçmək və aşağıda göstərilən sənədlərlə yaş qrupuna uyğun olaraq qeyd olunan tarixdə Bayıl stadionuna gəlmək lazımdır:**

**- Şəxsiyyəti təsdiq edən sənəd**
**- Sağlamlıq haqqında arayış**

**Seçim prosesi ilə bağlı suallar üçün üçün əlaqə vasitələri:**

**+994 55 511 33 03 - Ramin Həsənov**
**Muss@affa.az ailto:Muss@affa.az**

**Qeyd edək ki, "Mançester Yunayted Futbol Məktəbi"ndə məşqlər İngiltərədən ezam olunan məşqçi Mick Bennet və yerli məşqçi assistentlər- Cahangir Həsənzadə və Samir Ələkbərov tərəfindən keçirilir. Məşqlərdən əvvəl uşaqlara intensiv şəkildə həftədə iki dəfə ingilis dili dərsləri keçirilməklə yanaşı, sürət testləri, yoldaşlıq oyunları da təşkil olunur. Eyni zamanda, istedadlar qrupunun üzvləri "Mançester Yunayted" tərəfindən forma və digər idman avadanlıqları ilə təmin olunurlar. Hazırda "Mançester Yunayted Futbol Məktəbi"ndə 3 istedadlar və 2 ilkin hazırlıq qrupu mövcuddur.**


## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

## Elan

**Təcili Hacıqabulda hər bir şəraiti olan- daimi suyu, işıgı, 3 yaşayış evi, böyük tövlələri, yem anbarı, 3 ha meyvə bagı olan ferma, ərazisi 0.5 ha olan yol kənarında yerləşən fermaya bitişik restoranla birgə satılır.**

**Sənədlər qaydasindadır. Qiyməti 150.000 $.**

**Əlaqə nömrəsi : 050-214-40-53**

***

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**

**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**


## Başsağlığı

**Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətinin kollektivi Əliməmməd Nuriyevə qardaşı Vahabın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Jurnalistləri Ekstremal Şəraitdə İctimai Birliyinin kollektivi Əliməmməd Nuriyevə qardaşı Vahabın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT

Son səhifə

N 51 (6372) 4 mart 2016



## Keçibuynuzunun faydası

Cənub Anadolu və Aralıq dənizi bölgəsində yetişən keçibuynuzunun faydalarından bir çoxları hələ də xəbərsizdir. Halbuki bu bitki tərkibindəki zülal və minerallarla əsrlərdən bəridir insanlara sağlamlıq bəxş edir. Keçibuynuzu bitkisinin antiallergik və antibakterial olması immunitet sistemini gücləndirir, allergiyanın səbəb olduğu nəfəs darlığı probleminə qarşı təsirli dərman funksiyası yerinə yetirir. Allergik nəfəs darlığı problemi olanlar üçün keçibuynuzu bəhməzi olduqca fayda verir. Yüksək xam sellüloza malik olması sayəsində bağırsaq xəstəlikləri ilə mübarizə aparır, bağırsaq qurdu parazitlərinin məhv olmasını təmin edir. Uşaqlarda və yetkinlərdə ishala qarşı istifadə edilir. Bəlğəmtəmizləyici xüsusiyyəti ilə siqaret çəkənlər üçün son dərəcə faydalıdır. Sinəni yumşaldır və bronxları açır. Fosfor və kalsium baxımından zəngin olması sümük əriməsinə qarşı təsirli bir qoruma təmin edir. Saxladığı vitamin və minerallarla diş və diş əti xəstəlikləri ilə mübarizə aparır. Mədə və bağırsaq qazlarını çölə ataraq köpü aradan qaldırır. Qanın zəhərli maddələrini təmizləyir və qansızlığı aradan qaldırır. Yaddaşı gücləndirir və konsentrasiyanı artırır. Nizamlı şəkildə istifadə edilən keçiboynuzu ağciyər xərçənginə tutulma riskini azaldır.

# "Whatsapp"dan möhtəşam yenilik

**Öz istifadəçi sayını rekord həddə - 1 milyarda çatdıran ani mesajlaşma xidməti"Whatsapp" daha bir yeniliklə istifadəçilərini sevindirir. İndi "Whatsapp" vasitəsilə sənədləri də göndərmək mümkün olacaq.**

"iOS" və "Android" android.com sistemli telefonlara tətbiq edilən yeni xidmət, hələki"Windows" sistemli telefonlara şamil edilmir.

Yeni tətbiq hazırda yalnız PDF qovluqların paylaşılmasına imkan verir. Gələcəkdə digər variantda qovluqların göndərilməsi haqda hələ ki heç bir məlumat verilmir. Bundan başqa, "Whatsapp" daxilində olan divar kağızı seçimlərini dı artırmağı planlaşdırır. "Windows 10" sistemli mobil telefonlarda "Whatsapp" proqramına gətirilən yeniliklər isə videoqeydlər, sürətli foto çəkmə və 100-dən artıq yeni smaylların əlavə edilməsidir.




# Saxta facebooku olanlara cinayət işi

**Sosial şəbəkədə saxta hesab açmaq cinayət hesab ediləcək. İngiltərənin Krallıq Məhkəməsi Təşkilatı twitter və facebook sosial şəbəkələrində saxta hesab açaraq insanları narahat edən, təhqir edən və ən əsası haqlarında yalan söyləyən şəxslərə qarşı cəza tədbirlərinin görülməsinə dair plan hazırlayır. Təşkilat saxta hesab açmağı cinayət adlandırıb və onlara qarşı cinayət işinin açılması tələbi ilə çıxış edib. İngilis vəkil Alison Sanders deyib ki, bu cür insanlar elə düşünür ki, saxta profil arxasında gizlənmək olar və onları heç kim cəzalandırmayacaq. "Lakin bu belə deyil, cinayətkarlar internetdə "öz ayaq izlərini buraxa bilər". Həmçinin vəkil bir şəxsin adından saxta profil açıb, yalan danışaraq o insanın etibarının itirilməsinin cinayət olduğunu qeyd edib. Məhkəmənin rəhbəri Cenni Hopkins bildirib ki, sosial media qadınlara qarşı zorakılığın getdikcə artan maşınına çevrilib. Birləşmiş Millətlər Təşkilatının 2015-ci il hesabatına görə, Avropa Birliyi ölkələrində kiber zorakılığa məruz qalan 15 yaş və ondan yuxarı qadınların sayı 32 milyona çatıb.**





## Diş həkimi çənə sındırdı

**Rusiyanın Krasnoyarsk diyarındakı Norilsk şəhərində diş həkimi xəstənin ağıl dişini çıxarmaq istəyəndə qadının çənəsini sındırıb. "Flashsiberia" saytı bildirir ki, olay Norilsk şəhər Stomatoloji Klinikasında yaşanıb. Diş həkiminin ağıl dişini çəkərkən elevatorla kobud davrandığı, qadın pasiyentə fiziki güc tətbiq etdiyi deyilir.**

Həkim öz ərizəsi ilə işdən çıxıb. Çənəsi sınmış qadın isə məhkəməyə şikayətlənərək 150 min rubl məbləğində mənəvi təzminat istəyib. Məhkəmənin qərarı ilə həkim pasiyentə 75 min rubl ödəməlidir.




**QOÇ** - Özünüzdən böyüklərin və nə vaxtsa sizə yaxşılıq edənlərin üzünə ağ olmayın. Unutmayın ki, atalar "su gələn arxa bir də gələr" deyib. İkili düşüncələrdən xilas olmağa çalışın.

**BUĞA** - Potensial enerjinizin zəifləməsi fəaliyyətinizin passivləşməsinə rəvac verir. Buna baxmayaraq, bürcünüzə xas olmayan mistikaya meyl etməməlisiniz. Kənardan dəstək əldə etməyə çalışın.

**ƏKİZLƏR** - Köməyə böyük ehtiyacınız olduğunu görən Göy qübbəsi xidmətinizdə duracaq. Belə ki, nahardan sonra etibar etdiyiniz adamlardan dəstək alacaqsınız. Onları aramaqla məşğul olun.

**XƏRÇƏNG** - Ümumi gərginliyi nəzərə alıb gün ərzində ehtiyatlı taktikalardan istifadə etməlisiniz. Hər hansı mübahisə və hiyləgərlik müsbət nəticə verməyəcək. Riskli işlərdən uzaq olun.

**ŞİR** - Ulduzlar gün ərzində külli-ixtiyarı özünüzə verəcək. Bu səbəbdən də atdığınız addımlara, verdiyiniz qərarlara diqqət yetirməlisiniz. Nahardan sonra maraqlı hadisələrin şahidi olacaqsınız.

**QIZ** - Fəaliyyət göstərdiyiniz yerlərdə iş yoldaşlarınızla münasibətləri yaxşılaşdırın. Kiminsə yersiz atmacalarına əhəmiyyət verməyin. Saat 13-dən sonra daxili süstlüyünüz səngiyəcək.

**TƏRƏZİ** - Məhəbbət və nifrət! Gün ərzində bu iki amildən maksimum istifadə edəcəyiniz gözlənilir. Amma yaxşını kimə, pisi kimə yönəldəcəyinizi özünüz təyin edin. Səhhətinizə də fikir verin.

**ƏQRƏB** - Yeni işgüzar əlaqələrə başlamaq üçün uğurlu ərəfədir. Amma aldanma ehtimalınızın olacağını göz önünə gətirib ehtiyatı da əldən verməməlisiniz. İşdə məsuliyyətinizi hiss edin.

**OXATAN** - Maddi durumunuzu yaxşılaşdırmaq üçün geniş imkanlarınız var. Təxminən saat 12-dən etibarən bu yönümdə əzmkarlığınızı artırmalısınız. Bu gün başqalarının rəyini ciddi qəbul etməyin.

**OĞLAQ** - Səhhətiniz qaydasında olduğuna tam əminsinizsə, ən ciddi işlərin həllinə başlamağa dəyər. Saat 17-yə qədər böyük perspektivdən xəbər verən sövdələşmələrdə iştirakınız labüddür.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu təqvimdə əsasən emosiyalarınızı buxovlamalı, qeyri-ciddi işlərinizi təxirə salmalısınız. Ümumiyyətlə, ətrafda hər şeyin sabit olması üçün əzmkarlıq göstərməlisiniz.

**BALIQLAR** - Özünüzü aparıcı şəxs kimi təqdim etməyin. Yoxsa ətrafdakıların ikrahını qazana bilərsiniz. Hər halda, obyektiv fikirlərə də qiymət verməlisiniz. Riskli qərarlardan yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yarım milyon insan öləcək



**Oksford Universitetinin alimləri 35 il ərzində insanların qida əldə etmə imkanlarının azalacağını, buna görə də xəstəliklərin sayının artacağını və 500 min insanın öləcəyini deyiblər. "Qidanın gələcəyi" adlı araşdırma yazıda 2050-ci ilə qədər 500 min insanın hava və qida çatışmazlığı səbəbi ilə öləcəyi bildirilib. İngiltərənin "The Alncet" jurnalı adambaşına düşən qidanın 3,2 dəfə azalacağını yazıb. Qida azlığının ən çox Çin, Hindistan və Asiya ölkələrində müşahidə ediləcəyi deyilir. Yunanıstan və İtaliya da təhlükə altındadır.**

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750